RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 42 (8358) ÇƏRŞƏNBƏ AXŞAMI, 25 fevral 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## A.T.Rasi-zadənin 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Artur Tahir oğlu Rasi-zadə 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## T.M.Rzayevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Tahir Musa oğlu Rzayev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## İ.A.Ponomaryovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında idmanın inkişafında xidmətlərinə görə İqor Anatolyeviç Ponomaryov “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## S.G.İlyasovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında mülki aviasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Gülmirzə oğlu İlyasov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## İ.M.Qurbanovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə İsrafil Mirzəhməd oğlu Qurbanov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*



## QALİBLƏR

**Gecə saatları idi... Əksər vətəndaşlarımız kimi mən də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında təşkil olunmuş panel müzakirələrinin canlı yayımını izləyirdim...**

Bu, iki ölkə rəhbərliyi arasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı indiyə qədər media nümayəndələri önündə ilk belə geniş, açıq debat idi.

Elə ilk dəqiqələrdən aydın idi ki, müzakirələr xeyli maraqlı keçəcək və debatın qalibi məhz cənab İlham Əliyev olacaq.

Zənnimizdə yanılmadıq...

Bu debata adi müzakirədən, aparılan söhbətin detallarından daha çox böyük bir siyasi prosesin, onilliklər ərzində olub-keçənlərin yaratdığı ümumi həyat mənzərəsi, siyasi tablo, tarixi peyzaj kimi tamaşa edirdim.

Bu mənzərədə iki qütb vardı...

Bir tərəfdə öz xalqının mövqeyini, tarixi həqiqətləri, haqqın, ədalətin, vicdanın səsini ingilis dilində çox səlis şəkildə, əsl siyasətçi və diplomat məntiqi, təmkini ilə çatdıran, peşəkar davranışları rəğbət yaradan əsl Lider, Şəxsiyyət...

O biri tərəfdə isə belə müzakirələr üçün lazımi savadı, hazırlığı, səriştəsi, ən əsası isə arqumentləri, dəlilləri, hüquqi əsasları çatmayan, çox pis bildiyi ingilis dilinin hər kəlməsində dili topuq çalıb kəkələyən, nə demək istədiyi başa düşülməyən, opponentinin tutarlı arqumentləri qarşısında demoqoqluq edib gülünc vəziyyətə düşən, tez-tez səhvlər buraxan, miskinliyi ilə öz ölkəsinin, xalqının da adına utanc gətirən, tarixi faktları həyasızcasına təhrif etməsi ilə ikrah doğuran avantüristün biri...

❖❖❖

Müzakirələri izləyə-izləyə düşünürdüm ki, əslində Azərbaycan Prezidenti ilə Ermənistan rəhbərləri arasında aparılan bütün danışıqlarda cənab İlham Əliyev onları belə çətin duruma salıb, tutarlı arqumentlərlə susdurub və işğalçı ölkənin rəhbərləri belə miskin durumlara çox düşüblər.

Onlar haqsız tərəfdirlər axı...

Apardıqları işğal siyasətinə don geyindirmək üçün ağlabatan nə deyə bilərlər ki?!

Ona görə də onlar Azərbaycan Prezidenti ilə aparılan bütün danışıqlarda aciz durumdadırlar. Bu debatın önəmi isə Münxen Təhlükəsizlik Konfransı kimi mötəbər forum çərçivəsində və media üçün açıq keçirilməsi idi.

*Ardı 3-cü səh.*

## Azərbaycan idmançılarının XXXII Yay Olimpiya Oyunlarına və XVI Yay Paralimpiya Oyunlarına hazırlığının və Oyunlarda iştirakının təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Olimpiya oyunları dünyanın bütün dövlətlərinin diqqət mərkəzində olan ən mühüm və möhtəşəm idman tədbiridir. Müasir dövrdə hər bir dövlətin Olimpiya hərəkatında iştirakı, onu təmsil edən idmançıların Olimpiya oyunlarında göstərdikləri nəticələr ölkənin təkcə idman sahəsindəki potensialını deyil, həm də ümumi inkişaf səviyyəsini nümayiş etdirir, beynəlxalq nüfuzuna təsir göstərir.

Azərbaycan idman ölkəsi kimi artıq beynəlxalq aləmdə geniş tanınır, respublikamızın idman sahəsindəki uğurlarını, Olimpiya və Paralimpiya hərəkatının inkişafına verdiyi töhfələri idman ictimaiyyəti yüksək qiymətləndirir. Son illərdə Azərbaycanda keçirilmiş I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, Ümumdünya Şahmat Olimpiadası, Formula 1 kimi irimiqyaslı yarışlar buna əyani sübutdur.

Azərbaycan idmançıları Olimpiya və Paralimpiya oyunlarında böyük uğurla çıxış etmişlər. Azərbaycan Milli Olimpiya komandasının XXXI Yay Olimpiya Oyunlarında 1 qızıl, 7 gümüş, 10 bürünc medal və Paralimpiya yığma komandasının XV Yay Paralimpiya Oyunlarında 1 qızıl, 8 gümüş, 2 bürünc medal qazanması ölkəmizdə idmanın inkişafının və böyük potensiala malik olmasının parlaq təzahürüdür.

2020-ci ildə Yaponiyanın Tokio şəhərində keçiriləcək növbəti Yay Olimpiya Oyunlarına və Yay Paralimpiya Oyunlarına hazırlıq işlərini Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Olimpiya Komitəsi, Azərbaycan Milli Paralimpiya Komitəsi və müvafiq idman federasiyaları həyata keçirirlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Milli Olimpiya komandasının XXXII Yay Olimpiya Oyunlarına və Azərbaycan Milli Paralimpiya komandasının XVI Yay Paralimpiya Oyunlarına mütəşəkkil hazırlığının və bu oyunlarda iştirakının lazımi səviyyədə təmin olunması məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Milli Olimpiya Komitəsinin və Azərbaycan Milli Paralimpiya Komitəsinin təqdim edəcəkləri xüsusi proqramlara əsasən milli yığma komandaların XXXII Yay Olimpiya Oyunlarına və XVI Yay Paralimpiya Oyunlarına hazırlığı mərhələsində təlim-məşq toplanışlarının keçirilməsini, idmançıların rəsmi beynəlxalq yarışlarda iştirakını, ölkədə lisenziya yarışlarının təşkilini, Azərbaycan nümayəndə heyətinin Olimpiya oyunlarında və Paralimpiya oyunlarında iştirakını, eləcə də digər tədbirlərin həyata keçirilməsini təmin etsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

Əli Əsədov -
Azərbaycan Respublikasının Baş Naziri

**Komissiyanın üzvləri**

Əli Əhmədov -
Azərbaycan Respublikası Baş Nazirinin müavini
Ramiz Mehdiyev -
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Əbülfəs Qarayev -
Azərbaycan Respublikasının Mədəniyyət naziri
Oqtay Şirəliyev -
Azərbaycan Respublikasının Səhiyyə naziri
Ceyhun Bayramov -
Azərbaycan Respublikasının Təhsil naziri
Anar Quliyev -
Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri
İbrahim Quliyev -
Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti
İsa Həbibbəyli -
Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti
İsmayıl Hacıyev -
Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri
Fərhad Bədəlbəyli -
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru
Ömər Eldarov -
Azərbaycan Rəssamlıq Akademiyasının rektoru
Siyavuş Kərimi -
Azərbaycan Milli Konservatoriyasının rektoru
Əhliman Əmiraslanov -
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü
Abel Məhərrəmov -
Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü
Elbay Qasımzadə -
Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri
Şəfiqə Məmmədova -
Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri
Məhərrəm Qasımlı -
Azərbaycan Aşıqlar Birliyinin sədri
Çingiz Abdullayev -
Azərbaycan Yazıçılar Birliyinin katibi
Cəlal Abbasov -
Azərbaycan Bəstəkarlar İttifaqının katibi
Natiq Əliyev - Xalq rəssamı
Mövlud Süleymanlı - Xalq yazıçısı.

2. “Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 aprel tarixli 26 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 703) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## Azərbaycan-İtaliya münasibətləri strateji səviyyəyə yüksəlib

Azərbaycanın dünyanın müxtəlif qütblərində qərar tutan dövlətlərlə qurduğu ikitərəfli əlaqələr, mehriban dostluq və əməkdaşlıq münasibətləri ildən-ilə genişlənərək məzmunca yeni keyfiyyət mərhələsinə qədəm qoyur.

Bu zaman diqqəti çəkən əsas reallıqlardan biri odur ki, Azərbaycanın Cənubi Qafqazın lider dövləti olması bütün dünyada etiraf olunan həqiqətdir. Azərbaycan Prezidenti ilə görüşən hər bir dövlət başçısı ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bəyan edirlər. Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri bunları bir daha təsdiq etdi.

İkitərəfli münasibətlər kontekstində dövlət səfəri səviyyəsinə görə ən yüksək səfər hesab olunur və il ərzində bir ölkəyə məhdud sayda dövlət səfəri edilir. Dövlət səfəri zamanı müzakirə edilən məsələlərin əhatəsi daha geniş, mahiyyəti isə daha dərin olur. Bu, Azərbaycanın dövlət başçısının İtaliyaya ilk dövlət səfəri idi. Eyni zamanda bu səfər 2020-ci ildə İtaliyaya xarici dövlət başçıları tərəfindən edilən ilk dövlət səfəridir ki, bu da dövlətimizə və onun başçısına göstərilən xüsusi diqqətdən irəli gəlir. Ona görə bu səfər müstəsna əhəmiyyət daşıyır. Təbii ki, hər bir səfərin əhəmiyyəti həm də onun proqramı ilə ölçülür.

*Ardı 5-ci səh.*

### Xocalı faciəsindən 28 il ötür

## İnsanlığa qarşı amansız cinayət



Tarixinin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı.

### Faciəyə gedən yolun başlanğıcı

Xocalı qətliamının, eləcə də ondan əvvəl xalqımıza qarşı dəfələrlə törədilən soyqırımlarının vaxtında hüquqi-siyasi qiymətini almaması illər boyu Azərbaycanın üzləşdiyi ən böyük ədalətsizliklərdən biri olub. Bu ədalətsizliyin aradan qaldırılması üçün uzun müddət heç bir addım atılmayıb. Yaşanan faciələr, o cümlədən Xocalı soyqırımı haqda ətraflı təfsilatlı araşdırmalar yalnız Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra aparılıb. Eyni zamanda bu hadisələrə hüquqi-siyasi qiymətin verilməsi prosesi başlanıb. Dünyaya xalqımızın üzləşdiyi fəlakətlər barədə ətraflı, fakt və sübutlarla zəngin olan məlumatlar çatdırılıb. XX əsrin ən dəhşətli hadisələrindən olan Xocalı faciəsinin də həm bir soyqırımı olaraq təsbit edilməsi, həm də bu barədə əsl həqiqətlərin dünyaya çatdırılması məhz Ulu Öndər Heydər Əliyevin sayəsində mümkün olub.

Tarixin ironiyası isə ondan ibarətdir ki, ötən əsrin sonlarında Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə Azərbaycan xalqının üzləşdiyi yeni faciələr, yaşadığı soyqırımları elə Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasından sonra baş verdi.

*Ardı 7-ci səh.*

## «Xocalı harayı» Avropaya səs saldı

**28 illik nisgil...**
**Qəlblərdə yaşayan ağrı-acı, qaysaqlamayan yara...**
**İnsanlığa qarşı amansız soyqırımı və bir gecədə məhv edilən şəhər - XOCALI.**

Dünya tarixinin ən dəhşətli qətliamlarından biri hesab olunan bu faciənin yükünü illərdir sinəmizdə daşıyırıq. Fevralın 28-də hamılıqla birləşib günahsız körpələrin haqq səsini, ruhların harayını yayırıq dünyaya. İstədiyimiz tək ədalətdir, Xocalıya ədalət!

Erməni faşizminin mənfur xislətini tamamilə ifşa edən bu qanlı qırğının törədildiyi vaxtdan 28 il keçsə də, faciənin dəhşətləri hələ də unudulmayıb, unudulmayacaq da.

*Ardı 5-ci səh.*



## Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım.

Bu gün baş vermiş zəlzələnin Vanda insan tələfatına və dağıntılara səbəb olmasından çox kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2020-ci il*

## Küveyt Dövlətinin Əmiri əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda dost Küveyt xalqına ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Əminəm ki, Azərbaycan-Küveyt münasibətlərinin inkişafı bundan sonra da xalqlarımız arasındakı dostluq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, xalqınıza daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 fevral 2020-ci il*

## Nazirlər Kabineti koronavirus epidemiyasına qarşı görülən tədbirlərlə bağlı məlumat yayıb

Çin Xalq Respublikasında yayılmış koronavirusun Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısını almaq məqsədilə yanvarın 28-də Azərbaycan Respublikası Baş Nazirinin sədrliyi ilə hökumət komissiyası yaradılıb, yanvarın 30-da epidemiyaya qarşı Fəaliyyət Planı təsdiqlənib. Epidemiyanın təhlükəli miqyas almağa başladığı ilk gündən Azərbaycanın bütün sərhəd-keçid məntəqələrində, o cümlədən hava limanlarında profilaktik tədbirlər görülür. Həmin tarixdən başlayaraq bütün istiqamətlərdən Azərbaycana gələn sərnişinlər ciddi yoxlanılır və bu günədək ölkəmizdə koronavirusa yoluxma halı qeydə alınmayıb.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, son günlər İran İslam Respublikasında koronavirusa yoluxma hallarının artmasına və bəzi hallarda ölümlə nəticələnməsinə dair rəsmi məlumatların yayılmasından sonra Azərbaycan-İran sərhəd-keçid məntəqələri xüsusi rejimdə fəaliyyətə keçib. Fevralın 22-dən başlayaraq sərhəd-keçid məntəqələrində sanitar-dezinfeksiya işləri aparılır. Bu səbəbdən, keçid prosedurlarının sürəti azalıb.

Azərbaycan ərazisindən tranzit yüklərin daşınması üzərində də nəzarət gücləndirilib. Yüklərin ölkəyə girişi və çıxışında əlavə sanitar-dezinfeksiya tədbirlərinin görülməsi davam etdirilir.

İran İslam Respublikasında yaranmış vəziyyətlə əlaqədar olaraq əhaliyə xüsusi zərurət olmadığı hallarda qonşu ölkəyə səfərlərini müvəqqəti olaraq təxirə salmaq tövsiyə edilir.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət xüsusi nəzarətdədir. Aidiyyəti qurumlara gücləndirilmiş rejimdə fəaliyyət göstərməyə dair tapşırıqlar verilib.

Ölkəmizin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri olan bütün tədbirlər görülür və narahatlıq üçün əsas yoxdur. Epidemiyadan qorunmaq üçün ölkəmizdə kifayət qədər tibbi ləvazimatlar var.

Koronavirus epidemiyası hazırda beynəlxalq miqyaslı təhlükə olduğu üçün bu barədə təxribat xarakterli dezinformasiyalar yayılması halları da müşahidə olunmaqdadır. Vətəndaşlardan xahiş edirik ki, yalnız rəsmi məlumatlara etibar etsinlər.

Zəruri hallarda ictimaiyyətə əlavə məlumat veriləcək.

## Bakıda məcburi köçkün qadınların ədalət çağırışı mövzusuna həsr olunan beynəlxalq konfrans keçirilib




Fevralın 24-də Bakıda "Məcburi köçkün qadınların ədalət çağırışı: sülh və təhlükəsizlik məsələləri gündəmində onların ehtiyaclarının qarşılanması" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfrans Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM), Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının və BMT-nin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə baş tutub.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev tədbirin BMT Təhlükəsizlik Şurasının 2000-ci ildə qadın, sülh və təhlükəsizlik məsələlərinə dair qəbul etdiyi 1325 saylı qətnaməsinin 20-ci ildönümünə həsr olunduğunu bildirib.

Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin beşdəbir hissəsi işğal edilib, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb və 20 mindən artıq soydaşımız hərbi əməliyyatlarda həlak olub. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsində işğal pislənilir, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyü təsbit edilir. Bu qətnamələrdə Azərbaycanın üzləşdiyi humanitar aspektlər də əksini tapıb. Qətnamələrdə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması tələb olunur.

Prezidentin köməkçisi bildirib ki, bugünkü tədbir eyni zamanda Azərbaycan xalqının ağrılı yarası olan Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində keçirilir. Xocalı soyqırımı insanlıq əleyhinə cinayətdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində qadınların fəal rolunun mühüm amil olduğunu vurğulayan Hikmət Hacıyev deyib ki, Dağlıq Qarabağın azərbaycanlı icmasının qadın üzvləri Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında önəmli rol oynayırlar. "Azərbaycan qadınları hər zaman ölkəmizin tarixində mühüm rol oynayıblar. Təsadüfi deyil ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara səsvermə hüququ verilib",- deyən Prezidentin köməkçisi əlavə edib ki, Azərbaycanda BMT-nin 1325 saylı qətnaməsi ilə bağlı 2020-2023-cü illəri əhatə edən Milli Fəaliyyət Planı hazırlanıb.

BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, BMT-nin məlum qətnaməsində qadınların münaqişələrin qarşısının alınmasında, sülh quruculuğunda rolu əks olunub. Qadınların bu sahədə fəaliyyəti dayanıqlı sülh üçün təminat yaradacaq. Qadınlar və kişilərin bərabər tərəfdaş kimi tanındığı halda sülh üçün zəmin yarana bilər. Bu, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaqda da mühüm rol oynayır. Qadınların sülhün təmin edilməsi prosesindəki rolu təmin edilmədən məqsədlərə nail olunmayacaq.

"Regionun davamlı inkişaf modelini həyata keçirmək üçün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq çox vacibdir",- deyən Qulam İshaqzai Qarabağ icmaları arasında dialoq yolu ilə sabitliyin və sülhün möhkəmləndirilməsinin də önəmini vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 1325 saylı qətnamə ilə bağlı Azərbaycanın Milli Fəaliyyət Planının hazırlanaraq müvafiq dövlət qurumlarına göndərildiyini diqqətə çatdırıb. O deyib: "Hansı ölkə deyə bilər ki, BMT Təhlükəsizlik Şurasının 2000-ci ildə qəbul etdiyi 1325 saylı qadın, sülh və təhlükəsizlik məsələlərinə dair qətnaməsi ilə bağlı ciddi irəliləyiş əldə olunub? İlk növbədə, işğalçı ilə işğala məruz qalana fərq qoyulmalıdır. Niyə BMT Təhlükəsizlik Şurasının qətnamələri Azərbaycana münasibətdə icra olunmur? Ancaq başqa ölkələrə münasibətdə belə qətnamələr dərhal yerinə yetirilir. Elə dövrə gəlmişik ki, sülh dövlətlərin gücündən asılıdır. Azərbaycan artıq güclü bir ölkəyə çevrilib. Amma biz istərdik ki, bu münaqişələrin həllində qadınlarımız da sözlərini deyə bilsinlər. Qadınlarımızın da iştirakı ilə beynəlxalq təşkilatlar münaqişələrin həllinə nail olsunlar", - deyə komitə sədri bildirib.

Azərbaycanın İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva vurğulayıb ki, Azərbaycanda həyata keçirilən kompleks tədbirlər qaçqın və məcburi köçkünlərin hüquqlarının effektiv təmin olunmasına xidmət edir. "Azərbaycan erməni işğalından əziyyət çəkməkdə davam edir. Biz bir milyondan çox qaçqın və məcburi köçkünün öz evlərinə qayıtmalarını tələb edirik, əsir saxlanılanlar isə sərbəst buraxılmalıdır. Ermənistan tərəfinin təcavüzü nəticəsində yaranan humanitar fəlakətdə ən çox əziyyət çəkən qadınlar olub", - deyə S.Əliyeva bildirib.

Onun sözlərinə görə, Azərbaycanda qadınlar cəmiyyətin qurulmasında həmişə konstruktiv rol oynayıblar. Onların statusu həmişə yüksək olub, onlar iqtisadiyyatın və ictimai həyatın müxtəlif sahələrində kişilərlə bərabər fəal çalışırlar.

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev bildirib ki, münaqişə tərəflərinin qadınlara qarşı zorakılığı yolverilməzdir. "Təəssüf ki, İkinci Dünya müharibəsindən sonra da münaqişələrdə qadınların hədəf seçildiyini gördük. Ona görə də 1970-ci illərdə bu məsələyə diqqət artdı. 1325 saylı qətnamənin qəbulundan sonra Beynəlxalq Cinayət Məhkəməsinin yaradılmasını da qeyd etməliyik. Bu məhkəmənin də araşdırmalarında qadınların işgəncəyə məruz qalmasının şahidi olmuşuq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində azərbaycanlı qadınlar işgəncələrə məruz qalıblar. Dağlıq Qarabağdan olan azərbaycanlı qadınlarının sülh çağırışlarının şahidiyik. Bu qadınların torpaqlarında ləyaqətlə yaşamaq haqqı tanınmalıdır. İşğal başa çatdıqdan sonra yenidənqurma işlərində qadınlarımızın fəal iştirak edəcəyini gözləyirik. Bir statistikanı da qeyd etmək istəyirəm. Son 118 ildə Nobel mükafatı alan 52 qadından 17-si Sülh mükafatı alıb. Azərbaycan qadınlarının da torpaqlarımızın işğaldan azad edilməsinə öz töhfələrini verəcəyinə əminəm",- deyə icma rəhbəri vurğulayıb.

Konfrans panel müzakirələrlə davam etdirilib.

## *Hikmət HACIYEV:* "Azərbaycan Prezidentinin İtaliyaya dövlət səfərini mahiyyət və məzmun etibarilə tarixi səfər adlandıra bilərik"

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev dövlət başçısı İlham Əliyevin İtaliya Respublikasına dövlət səfərinin yekunları ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasına dövlət səfərini ölkələrimiz arasında münasibətlərin inkişafı baxımından necə xarakterizə edərdiniz?*

- İtaliya Azərbaycanın dövlət müstəqilliyini 1992-ci il yanvarın 1-də tanıyıb və ölkələrimiz arasında həmin il mayın 2-də diplomatik münasibətlər qurulub. Həmin vaxtdan etibarən əlaqələrimiz davamlı olaraq yüksələn xətlə inkişaf edir. Cənab Prezidentin İtaliyaya ilk dövlət səfərinin status, imzalanmış sənədlərin kəmiyyəti və keyfiyyəti, ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması və iqtisadi-ticari, hərbi-texniki, mədəni əlaqələr baxımdan müstəsna əhəmiyyəti var. Bu, Azərbaycan dövləti başçısının İtaliyaya ilk dövlət səfəridir. Əvvəlki illərdə cənab Prezident üçü rəsmi, ikisi isə işgüzar olmaqla beş dəfə İtaliyada səfərdə olub. İtaliya Respublikasının Prezidenti Sercio Mattarella da 2018-ci ilin iyulunda Azərbaycana ilk rəsmi səfərini edib. Dövlət səfəri status baxımından səviyyəsinə görə ən yüksək səfər hesab olunur və il ərzində bir ölkəyə məhdud sayda dövlət səfəri edilir. Dövlət səfəri zamanı müzakirə edilən məsələlərin əhatəsi daha geniş, mahiyyəti daha dərin olur. Eyni zamanda bu səfər 2020-ci ildə İtaliyaya xarici dövlət başçıları tərəfindən edilən ilk dövlət səfəridir ki, bu da ölkəmizə və onun Prezidentinə göstərilən xüsusi hörmətdən irəli gəlir. Səfər zamanı Azərbaycanın dövlət başçısına və birinci xanımına misli görünməmiş ehtiram və xüsusi diqqət göstərildi. Bunu istər dövlət başçımızın səfərinin təşkilati-protokol aspektlərinin hər bir incəliyinə qədər düşünülmüş olması, istərsə də səfərin proqramının zəngin olmasında müşahidə etmək olar. Səfər çərçivəsində Prezident İlham Əliyevin italiyalı həmkarı Sercio Mattarella ilə təkbətək və geniş tərkibdə görüşü, habelə Nazirlər Şurasının Sədri (Baş Nazir) Cüzeppe Konte, İtaliya parlamenti Senatının və Deputatlar Palatasının sədrləri ilə görüşləri keçirilib.

Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri Azərbaycan və İtaliya arasında əlaqələrin yeni keyfiyyət müstəvisinə qədəm qoymasını təmin etdi. Belə ki, hazırda Azərbaycan və İtaliya arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. İtaliya Avropa İttifaqının üzv ölkələri arasında Azərbaycanın bir nömrəli siyasi, iqtisadi və ticarət tərəfdaşıdır. Yüksək səviyyədə olan siyasi əlaqələrimiz var. Təcrübə göstərir ki, ölkələr arasında siyasi əlaqələrin mükəmməlliyi digər vacib istiqamətlərdə, o cümlədən iqtisadi, ticarət, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradıb.

İkitərəfli formatda strateji tərəfdaşlıq əlaqələri ilə yanaşı, ölkələrimiz çoxtərəfli müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər. Xüsusilə, İtaliya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığının güclənməsinə fəal dəstək verən çox vacib ölkədir. İtaliya dünyanın 7-ci iqtisadiyyatı olaraq "Böyük Yeddiliyin", Avropa İttifaqı və NATO kimi təşkilatların üzvüdür, beynəlxalq münasibətlərdə öz çəkisi və rolu olan ölkədir.

Görüşlərdə İtaliya tərəfindən Azərbaycanın çox vacib regionda yerləşməsi, çətin bir regionda yerləşməsinə



baxmayaraq, çox uğurlu siyasət aparması və qonşu ölkələrlə sıx münasibətlər qurması, habelə ölkəmizin dünyəvilik ənənələri vacib amillər kimi qeyd olundu.

Səfər çərçivəsində digər tədbirlər sırasında İtaliya Prezidentinin Sarayında Prezident İlham Əliyevin şərəfinə verilmiş dövlət ziyafətini, dövlət başçıları və nümayəndə heyətləri üçün "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə konsert proqramını, İtaliyanın dünya səviyyəsində məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi naharı, Azərbaycan-İtaliya biznes forumunu, Roma şəhər meriyasına ziyarəti qeyd etmək olar.

Ona görə də bu səfəri mahiyyət və məzmun etibarilə tarixi səfər adlandıra bilərik.

*- Səfər çoxlu sayda ikitərəfli sənədlərin imzalanması ilə səciyyələndi. Bu sənədlərin mahiyyəti nədir və onların ölkələrimiz arasında strateji əməkdaşlığın güclənməsi baxımından əhəmiyyətini necə qiymətləndirmək olar?*

- Səfər çərçivəsində iki dövlət arasında ümumilikdə 28 sənəd imzalandı. Bu sənədlər siyasi, müdafiə, iqtisadi-ticari, energetika, yüksək texnologiyalar, nəqliyyat, infrastruktur, mədəniyyət, elm, turizm, idman, qida təhlükəsizliyi, paytaxtlar səviyyəsində əməkdaşlıq sahələrini əhatə edir. Onlardan 17-si Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Kontenin iştirakı ilə imzalandı və mübadilə olundu. Digər sənədlər biznes forum çərçivəsində imzalandı.

İmzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Sənədin bilavasitə Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Konte tərəfindən imzalanması bu sənədin siyasi yükünü göstərir.

Bu, Azərbaycanın digər ölkələrlə, o cümlədən "Böyük Yeddiliyin" və Avropa İttifaqının üzvü olan ölkə ilə imzaladığı ilk belə sənəddir. Bu sənədlə ölkələrimiz arasında münasibətlər yeni, daha yüksək səviyyəyə qədəm qoyur. Belə ki, tərəflər bir-birini strateji tərəfdaş kimi qəbul etməklə yanaşı, bu strateji tərəfdaşlığın bütün istiqamətlərdə daha da gücləndirilməsi istəyini ortaya qoyurlar.

Birgə Bəyannamədə Azərbaycan üçün olduqca vacib məqamlar yer alır. Sənədin preambula hissəsində ikitərəfli münasibətlərin əsaslandığı prinsiplər sadalanır ki, bunlar arasında tərəflərin bir-birinin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstək verməsi xüsusilə qeyd olunmalıdır. Tərəflər beynəlxalq münasibətlərdə təcavüz aktının qəbuledilməzliyini vurğulayırlar.

Birgə Bəyannamədə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tərəflərin birmənalı mövqeyi də əks olunur. Sənədin siyasi hissəsində münaqişənin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı, BMT və ATƏT-in müvafiq sənəd və qərarları əsasında nizamlanmasına dair olduqca əhəmiyyətli maddə yer alır.

İtaliya hər zaman münaqişənin həlli prosesində Azərbaycanın haqlı mövqeyini dəstəkləyib və onun səyləri hər zaman Azərbaycan tərəfindən yüksək qiymətləndirilib. İtaliya ATƏT-in Minsk qrupunun üzvlərindən biridir və Minsk prosesi çərçivəsində çox fəal olub. Vaxtilə ATƏM-in Minsk Konfransının və sonradan ATƏT-in Minsk qrupunun ilk sədri də məhz italiyalı diplomat Mario Rafaelli olub. Məhz 1993-cü ildə italyan diplomat Mario Rafaellinin Ağdam şəhərinin işğalından sonra BMT Baş katibinə hazırladığı hesabat əsasında BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsi qəbul olunub.

Sənəddə həmçinin Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri, "Cənub qaz dəhlizi"nin son seqmenti olan TAP layihəsi və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində onların rolu və ölkəmiz üçün digər vacib məqamlar da yer alır. Cənab Prezidentin vurğuladığı kimi, Birgə Bəyannamədə əks olunan istər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, istərsə də digər məsələləri əhatə edən müddəalar Avropa İttifaqı ilə Azərbaycan arasında yeni tərəfdaşlıq sazişi üçün möhkəm əsas təşkil edə bilər.

Nəticə etibarilə Azərbaycan və İtaliya siyasi, iqtisadi, ticarət, enerji, mədəni-humanitar və digər sahələrdə strateji tərəfdaşlığı hərtərəfli şəkildə inkişaf etdirmək barədə iradələrini ifadə edirlər və bu prosesin irəli aparılması üçün iki ölkə arasında davamlı xarakter daşıyan strateji dialoq mexanizmi yaradılır.

*- İqtisadi-ticari və digər sahələrdə əməkdaşlıq Azərbaycan və İtaliya arasında strateji tərəfdaşlığın genişlənməsinə nə kimi töhfə verir?*

- Azərbaycanın İtaliya ilə strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsi siyasi sahə ilə yanaşı, digər sahələrdə də intensiv və məzmunlu əməkdaşlıq əlaqələri ilə səciyyələnir. İlk növbədə, ölkələrimiz arasında iqtisadi-ticari sahədə işbirliyi xüsusi əhəmiyyətə malikdir. İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Təkcə 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları təşkil edib. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür.

Enerji sahəsində əməkdaşlığın olduqca yüksək səviyyəsi xüsusilə qeyd olunmalıdır. Uzun illər Azərbaycan İtaliya istehlakçılarını xam neftlə təchiz edir. Keçən il Azərbaycan İtaliyanın ən böyük xam neft təchizatçısı olub. İtaliyada istehlak olunan neftin 17 faizi ölkəmizin payına düşür. Bu il "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP layihəsi üzrə işlərin tamamlanmasından sonra bu rəqəm daha da artacaq. Bu layihənin reallaşdırılması Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, ölkələrimizin mənafeyi və xalqlarımızın rifahına mütləq şəkildə xidmət edəcək.

İtaliya dünyanın 7-ci iqtisadiyyatıdır və "Böyük Yeddilik" ölkəsidir. Qabaqcıl texnoloji yeniliklərə və nou-haulara malik italyan şirkətləri Azərbaycanın neft-qaz və qeyri-neft sektorunda ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan 300-dən artıq müxtəlif layihələrdə iştirak edirlər. Hazırda Azərbaycanda sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, rabitə, xidmət və digər sahələrdə fəaliyyət göstərən 100-dən çox İtaliya şirkəti qeydiyyata alınıb.

Təsadüfi deyil ki, dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevin dünyanın ən aparıcı italyan şirkətlərinin rəhbərləri ilə görüşü oldu. Habelə cənab Prezidentin iştirakı ilə hər iki tərəfdən sənaye, o cümlədən tekstil və qida sənayesi, energetika, kənd təsərrüfatı, logistika, İKT, səhiyyə, turizm, konsaltinq, tikinti sahələrini təmsil edən 100-ə yaxın şirkətin qatıldığı Azərbaycan-İtaliya biznes forumu keçirildi. Əvvəlki biznes forum 2018-ci ilin iyul ayında İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda baş tutmuşdur. İki ölkənin iş adamları arasında dövlət başçılarının iştirakı ilə belə görüşlərin keçirilməsi ənənəvi hal almaqla yanaşı, ikitərəfli iqtisadi-ticari əlaqələrin inkişafına dövlət səviyyəsində verilən yüksək diqqətin göstəricisidir.

Azərbaycan və İtaliya hərbi-texniki sahədə də əməkdaşlıq barədə razılıq əldə ediblər. Bu sahədə əməkdaşlıq ölkələrimiz arasında qarşılıqlı etimadın yüksək səviyyəsinin və Azərbaycanın hərbi-texniki sahədə əməkdaşlığının coğrafiyasının genişliyinin təzahürüdür.

Digər ikitərəfli əməkdaşlıq sahələrindən bəhs edərkən mədəni-humanitar sahədə son illər həyata keçirilən uğurlu təşəbbüsləri xüsusilə qeyd etmək lazımdır. Bu xüsusda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Heydər Əliyev Fondunun rolu qeyd olunmalıdır. Heydər Əliyev Fondu tərəfindən İtaliyada müxtəlif layihələr reallaşdırılır. Roma şəhərində mədəniyyət abidələrinin bərpası işlərinə Azərbaycan tərəfindən fəal dəstək göstərilir. Mütəmadi əsasda İtaliyada keçirilən Azərbaycan kino və mətbəx festivalları ölkəmizin mədəniyyətinin təbliğinə xidmət edir. İtaliya dövlətinin başçısı tərəfindən 2020-ci ilin İtaliyada "Azərbaycan Mədəniyyət İli" elan olunması ölkəmizin mədəniyyətinin İtaliyada və Avropada daha geniş kütlələrə çatdırılmasına, xalqlararası təmasların daha da güclənməsinə və Azərbaycan-İtaliya əlaqələrinin daha da genişlənməsinə töhfə verəcək.

Bildiyiniz kimi, 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsinin açılışı olub. İtaliyaya səfəri zamanı cənab Prezident və birinci xanım bu abidəni ziyarət etdilər və önünə gül dəstələri qoydular.

Növbəti mühüm layihə kimi Romanın mərkəzi hissəsində Azərbaycan Mədəniyyət Mərkəzinin açılması nəzərdə tutulur. Belə mərkəzlər hazırda Paris, Berlin və Vyanada fəaliyyət göstərir. Səfər zamanı cənab Prezident və birinci xanım Romada Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış oldular.

Humanitar sahəyə gəldikdə, son illərdə iki ölkənin elmi-akademik dairələri, ali təhsil müəssisələri arasında əməkdaşlıq daha intensiv xarakter alıb. Hazırda Azərbaycan Dillər Universitetində italyan dilinin tərcüməsi ixtisası tədris olunur və italyan dili mərkəzi fəaliyyət göstərir. İtaliyanın iki aparıcı universitetində - Roma Sapienza Universiteti və Venesiya Ka Foskari Universitetində azərbaycanşünaslıq fəaliyyəti çərçivəsində tədqiqatlar, tədris kursları həyata keçirilir. Son illərdə İtaliyanın ali təhsil müəssisələrində azərbaycanlı tələbələrin sayı artaraq 1500 nəfərə çatıb.

Azərbaycan Respublikası Prezidentinin İtaliyaya ilk dövlət səfəri, habelə səfər çərçivəsində imzalanmış Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə və digər istiqamətlər üzrə ikitərəfli sənədlər ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin yeni sahələr üzrə səmərəli şəkildə inkişafını təmin edəcək.

## Koronavirus təhlükəsi ilə əlaqədar aidiyyəti qurumların rəhbər şəxsləri Astara və Biləsuvar buraxılış məntəqələrində olublar

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə fevralın 24-də Dövlət Sərhəd Xidmətinin (DSX), Dövlət Gömrük Komitəsinin, Daxili İşlər, Fövqəladə Hallar, Səhiyyə nazirliklərinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Qida Təhlükəsizliyi Agentliyinin rəhbər vəzifəli şəxsləri və mütəxəssislər İran İslam Respublikası ilə dövlət sərhədindəki Astara və Biləsuvar buraxılış məntəqələrinə səfər ediblər.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində son vaxtlar İran İslam Respublikasında müşahidə olunan koronavirus epidemiyasına qarşı dövlət sərhədindən buraxılış məntəqələrində həyata keçirilən qabaqlayıcı tədbirlərin gücləndirilməsi, bu xəstəliyə yoluxmalarına şübhə yaranan şəxslərin vaxtında aşkarlanması və tibbi təxliyəsi üzrə hazırlığın vəziyyəti nəzərdən keçirilib.



Gücləndirilmiş iş rejimində fəaliyyət göstərən dövlət sərhədindən buraxılış məntəqələrində ölkə ərazisinə daxil olan şəxslərin bədən hərarətinin xüsusi avadanlıq vasitəsilə yoxlanılması, əlavə tibbi heyətin və təcili tibbi yardım avtomobillərinin birbaşa postların ərazisinə cəlb olunması və 24 saat növbəli rejimdə fasiləsiz fəaliyyət göstərmələri ilə bağlı monitorinq keçirilib.

Müzakirələr zamanı bu günədək xəstəliyə yoluxma ilə bağlı şübhələrin olmaması nəzərə alınmaqla gələcəkdə ehtimal edilən riskli hallarda birgə fəaliyyətin əlaqələndirilməsi məsələləri üzrə fikir mübadiləsi aparılıb. Həmçinin dövlət sərhədindən keçən şəxslərin bu epidemiya barədə maarifləndirilməsi istiqamətində müvafiq tapşırıqlar verilib.



# QALİBLƏR

*Əvvəli 1-ci səh.*

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlər canlı yayımla bütün beynəlxalq birliyin diqqətinə çatdırıldı, dünya ictimaiyyəti bu münaqişədə hansı tərəfin haqqa, ədalətə, beynəlxalq hüquq normalarına, tarixi reallıqlara əsaslandığına, hansı tərəfin sadəcə ikrah doğuran həyasızlıq etdiyinə bir daha şahid oldu.

Bir daha əmin oldum ki, məhz bu həyasızlığı, arqumentsizliyi, gülünc durumu daha geniş auditoriyanın görməməsi üçün Ermənistanın Paşinyandan əvvəlki rəhbərləri həmin günə qədər münaqişənin həllinə dair beynəlxalq birliyə mesajların ötürülməsi məramı ilə yaradılan imkandan qaçıblar. Açıq dialoqdan müxtəlif bəhanələrlə yayınıblar. Hətta Davos Forumu çərçivəsində təşkil olunan müzakirələrdə iştirakını belə təxirə salıblar. Bunun da əsas səbəbi odur ki, Ermənistan işğalçı dövlətdir, diplomatik mövqeyi çox zəifdir, bu, mövqeyi əsaslandırmaq üçün ciddi arqumentlərə malik deyil! Üstəlik, bu dövlətin rəhbərləri Azərbaycan Prezidenti cənab İlham Əliyevin şəxsində necə güclü bir opponentlə, öz ölkəsinin, xalqının maraqlarını yüksək qətiyyət və məharətlə təqdim edən peşəkar diplomat, təcrübəli dövlət adamı ilə üz-üzə əyləşəcəklərini fərq ediblər.

Paşinyan isə kiminlə debata çıxdığını, görünür, hələ dərk edə bilməmişdi...

Və müzakirələrin elə ilk dəqiqəsindən o, öz dərsini aldı!..

Bu, Azərbaycan Prezidentinin siyasətdə hələ piyada olan Ermənistan baş nazirinə həm səriştəli dövlət adamının verdiyi ustad dərsi, həm tarixçi alimin tarix dərsi, həm də beynəlxalq hüquq, beynəlxalq münasibətlər elminin bilicisinin keçdiyi hüquq dərsi idi. Məhz buna diqqət edib bütün Ermənistan əhalisi kimi qəzəbini gizlədə bilməyən İrəvanda yaşayan jurnalist Artak Vardanyan deyib: "Nikol Paşinyan... 1991-1994-cü illərdə Yerevan Universitetinin Filologiya fakültəsində jurnalistika ixtisası üzrə təhsil alıb. Siyasi fəaliyyətinə görə təhsil ocağından qovulub. Tarixi bilmir, münaqişədən xəbəri yoxdur. Son iki ildə baş nazirdir, ancaq hələ də özünü 3-cü sinif küçə siyasətçisi kimi populist aparır".

Müzakirələrdən bir daha aydın göründü ki, Dağlıq Qarabağın tarixi, müxtəlif dövrlərdə bu ərazilərin mənsubiyyəti, əhali tərkibi ilə bağlı tarixi həqiqətlər Ermənistan üçün çox ağır mövzudur. Cənab İlham Əliyevin Dağlıq Qarabağın Azərbaycana məxsus olması ilə bağlı dilə gətirdiyi tarixi həqiqətlər qarşısında Paşinyanın dərsini pis bilən şagird kimi eramızdan əvvəlki dövrə mücərrəd və dolayı ekskursu isə auditoriyanı çaşdırmaq cəhdindən başqa bir şey deyildi. Debat zamanı açıq şəkildə göründü ki, Paşinyan Prezident İlham Əliyevin səsləndirdiyi tarixi həqiqətlər, təqdim etdiyi faktlar qarşısında çıxılmaz durumdadır.

Bu müzakirələrdə Azərbaycan Prezidenti ənənəvi erməni demaqogiyası, mifləri, iddiaları ilə "silahlanmış" Paşinyanı faktlarla, məntiqlə darmadağın etdi! Saxta tarix, əlləri çatan hər şeyi oğurlayıb özününküləşdirmək, həqiqətləri təhrif etmək mərəzinin erməni xalqını da, onun özünə rəhbər etdiyi şəxsləri də belə açıq tribunalarda necə ironik durumda qoyduğunu bütün dünyaya göstərdi. Ona görə də bu durumu xəcalətlə izləyən erməni politoloq Andranik Tevanyanın görüşdən dərhal sonra "uduzan tərəf Ermənistan nümayəndələri idi və bunda günahkar onlar özləridir" deməklə kifayətlənməyib kinayə ilə "Paşinyanın beynəlxalq auditoriya qarşısında belə ehtiyatla və belə imiclə çıxış etməsi yenə də sübut etdi ki, dövlət başçısı kostyumu onun üçün çox böyükdür. Çox böyük!" deməsi başa düşüləndir.

❖❖❖

Bu mənzərə təkcə iki münaqişə tərəfinə rəhbərlik edən şəxslərin debatı deyildi.

Bu mənzərə iki rəhbərdən də çox iki ölkənin, iki cəmiyyətin, iki xalqın, iki dünyagörüşünün qarşılaşması kimi gəlirdi adama. Paşinyanın Münxen təhlükəsizlik konfransı çərçivəsində İlham Əliyevin qarşısında gülünc vəziyyətə düşməsini baş nazirin kütlüyü ilə izah edən erməni yazıçı Anna Turcotte qəzəblə qeyd edir ki, məhz Paşinyanın tarixdən xəbərsiz olması, siyasi diskussiyaya lazımınca hazırlaşa bilməməsi onu, onun timsalında isə bütün Ermənistanı gülünc vəziyyətdə qoyub. Ermənistan isə çoxdan gülünc vəziyyətə düşüb, Paşinyan sadəcə onun hansı vəziyyətdə olduğunu beynəlxalq ictimaiyyətə nümayiş etdirdi...

Son onilliklərdə Azərbaycanla Ermənistan arasında yaranmış inkişaf fərqini, işğalçı ölkədən nə qədər irəlidə olduğumuzu, düşmən ölkə və cəmiyyət üzərində nə qədər böyük üstünlük qazandığımızı ilk dəfə idi ki, bu qədər aydın şəkildə görmək olurdu.

Bu reallıqları indiyə qədər ayrı-ayrı hesabatlardan, təhlillərdən, analitik şərhlərdən oxumuşduq, müəyyən məlumatlar əsasında özümüz üçün bir nəticəyə gəlmişdik. Cənab İlham Əliyevlə Nikol Paşinyanın debatında isə bu fərqin özü danışırdı, o videogörüntülər, əslində, bu münaqişədə qalib tərəfin kim olduğunu açıq-aydın əks etdirirdi.

Bir tərəfdə özünə, apardığı siyasətin düzgünlüyünə, vətəndaşlarının dəstəyinə, ölkəsinin gələcəyinə əmin olan, tarixinin ən böyük inkişaf mərhələsinə yetirdiyi Vətənin nailiyyətlərinin verdiyi inamla, yüksək intellektual səviyyə ilə, peşəkar bilik və bacarıqlarla məğlubedilməz görünən və bu üstünlüyü ilə də xalqının sözünü çatdıran Prezidentin təmsil etdiyi, bütün dünyanın getdikcə daha böyük rəğbət duyduğu Azərbaycan...

O biri tərəfdə isə hakimiyyətə liderlik qabiliyyətləri, hər hansı menecerlik istedadı hesabına deyil, sırf təsadüf nəticəsində gəlib çıxmış, bütün siyasi həyatı, karyerası, kürsüdən üzüaşağı yuvarlanması yenə də növbəti təsadüflərdən, qaragüruhun emosiyalarından asılı olan, bundan qorxaraq da əsl həqiqətləri dilə gətirə bilməyən naşı boşboğazın illərdir ki, xəstə düşüncələrin əsiri olub yaman günə düşən, inkişafdan, tərəqqidən, müasir trendlərdən uzaq qalıb ac-yalavac dolanan işğalçı imicli, kasıb və miskin ölkəsi. Məhz ölkəsinin rəhbərinin çıxışından beynəlxalq auditoriyada bu assosiasiya formalaşdığına görə hikkəsindən az qala çatlayan Daşnaksütyun partiyasının üzvü Lilit Qalstyan deyir: "Diplomatiya, ictimai danışıq çox danışmağı - boşboğazlığı sevmir, xüsusilə də malik olmadığın bir dillə. Paşinyan da naşı bir diplomat olduğunu Münxendə Əliyevin qarşısında göstərdi. Paşinyan əvvəlcə öz səhvlərini görmək, sonra düzəltmək qabiliyyətinə sahibdirmi? Bəs səhvlər çox və düzəlməzdirsə? Paşinyanın səhvləri çox olsa da, o bunları düzəldə bilmir"...

Videogörüntülər başa çatandan sonra özümdən asılı olmadan bir daha başdan izlədim. Səhər yenidən baxdım və müzakirələrin artıq bir sıra portallarda yayılmış tam stenoqramını da tapıb kəlmə-kəlmə oxudum. Bilirəm ki, Münxen debatının videosunu bundan sonra yenə də izləyəcəyəm. Çünki o kadrlara təkrar-təkrar baxmaqdan zövq alıram. Bu, daxilimdən gələn mənəvi istəkdir.

Hər izlədiyimdə qürur duyuram.

Cənab İlham Əliyevin şəxsində belə bir Liderin rəhbərlik etdiyi, gələcəyə doğru apardığı ölkənin vətəndaşı olmağın qürurunu...

❖❖❖

Dünyada iki insan bir-birinə bənzəmədiyi kimi bir lider də digərinin eynisi deyil. Əgər insanın liderlik qabiliyyətlərini müəyyən edən konkret standartlar olsaydı, onda xalqların da, təşkilatların da özlərinə uğurlu lider seçmək işi xeyli asanlaşardı.

Amma dünyanın harasında olur-olsun, vətəndaşlardan öz liderlərində görmək istədikləri xarakterik xüsusiyyətlər haqqında soruşanda onlar yüksək intellekti, xarizmanı, qətiyyəti, entuziazmı, gücü, cəsarəti, yeni situasiyalara, inkişaf trendlərinə uyğunlaşma qabiliyyətini, özünə inamı əsl lider haqqında düşüncələrinin ön cərgəsində sadalayırlar.

İlham Əliyev müasir dünyamızdakı çox az liderlərdəndir ki, qeyd edilən xüsusiyyətlər onun şəxsiyyətində bir-birini tamamlayır. Üstəlik, Azərbaycan Prezidentinin liderlik qabiliyyətləri onun yüksək idarəçilik istedadı ilə birləşir və ölkəmizin bu gün əldə etdiyi bütün tarixi nailiyyətlərin rəhninə çevrilir.

Liderlik Azərbaycan prezidentinin şəxsində həm fitri qabiliyyətdir, həm də Ulu Öndər Heydər Əliyevlə akademik Zərifə xanım Əliyevanın ailə ocağında, xalqın bu iki böyük ziyalı şəxsiyyəti ətrafında formalaşan yüksək intellektual mühitdə, Ümummilli Liderlə gündəlik ünsiyyət zamanı bu böyük dövlət adamının siyasət məktəbində daha da inkişaf etdirilmiş bacarıqdır.

Bu fikirləri qələmə alanda, 1993-cü ilin dekabrında Ümummilli Lider Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı onu müşayiət edən bir jurnalistin qeydləri yadıma düşdü. Adını xatırlamadığım jurnalist yazırdı: "Səfər zamanı Azərbaycan Prezidenti Heydər Əliyevlə Fransa Prezidenti Fransua Mitteranın görüşü protokola əsasən 20 dəqiqə nəzərdə tutulurdu. Amma iki dövlət başçısı arasında təkbətək danışıqlar saatyarım çəkdi. Fransanın diplomatik heyəti bir-birinə dəymişdi. Özləri etiraf edirdilər ki, bu, çox nadir hallardan biridir. Görüş başa çatandan sonra biz Fransua Mitteranı çox pərişan, Heydər Əliyevi isə çox qəzəbli gördük. Hiss etdik ki, danışıqlar çox gərgin keçib. Nəticə dərhal özünü göstərdi. Fransua Mitteran mətbuat üçün bəyanat verəndə ilk dəfə idi ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını rəsmən bəyan edirdi.Yalnız bundan sonra Ulu Öndərin çöhrəsində bir təbəssüm yarandı. Bundan sonra görüşü izləyən jurnalist Mirzə Xəzər astaca sevinclə mənə dedi ki, Heydər bəy Mitteranı da sındırdı".

Bəli, bu böyük insan əyilməz iradəsi, qətiyyəti ilə xalqını, ölkəsini şərəflə təmsil edən Azərbaycan dahisi Heydər Əliyev idi, bir neçə gün əvvəl Münxendə Nikol Paşinyanı əzən, beynəlxalq aləmin gözü qarşısında onun acizliyini, çılızlığını, savadsızlığını, Ermənistanın işğalçı olduğunu nümayiş etdirən isə Heydər Əliyev siyasi akademiyasını əla qiymətlərlə bitirən, Ulu Öndərin "özü kimi inandığı" Azərbaycan Prezidenti İlham Əliyevdir.

Dünyanın bir çox ölkələrinə səs salan Münxen debatını izləmiş Rusiya Federasiyası İctimai Palatasının üzvü Sergey Markov Prezident İlham Əliyevin Paşinyan üzərində diplomatik qələbəsinin gözlənilən olduğunu bildirərək deyir: "Əlbəttə, Azərbaycan Prezidenti İlham Əliyevin böyük diplomatik istedadını, dünya liderləri ilə ünsiyyət təcrübəsini nəzərə alanda onun Nikol Paşinyan üzərində qələbə qazanması təəccüblü deyil. Üstəlik, həqiqət Azərbaycan Prezidentinin yanındadır. Çünki hamı bilir ki, Dağlıq Qarabağ və ətrafındakı ərazilər işğal olunub, orada etnik təmizləmə aparılıb. Tarixə ekskursiyalar barəsində isə onu deyə bilərik ki, Nikol Paşinyanın Böyük Tiqranla əlaqəli açıqlaması, yəqin ki, kiçik millətin bir növ yeniyetməlik kompleksinin irrasional şüurunun təzahürüdür". Son dərəcə obyektiv qiymətləndirmədir.

❖❖❖

Bütün uğurlu liderlər kimi, İlham Əliyev də daim hərəkətdədir, iş başındadır, enerji dolu obrazı ilə dinamik, işgüzar mühitin əhatəsindədir.

O, Azərbaycan naminə davamlı nailiyyətlərə can atır. Qarşıya qoymuş milli hədəflərə yetişməkdən ötrü yorulmadan çalışır, ardıcıl təşəbbüslər göstərir, başqalarını da buna sövq edir.

Azərbaycan Prezidentinin yüksək intellekti ona böyük həcmdə aramsız informasiya axınını təhlil etməyə və nəticələr çıxarmağa, ölkənin və xalqın gələcəyi üçün yeni baxışlar müəyyənləşdirməyə, problemlərin həlli üçün doğru qərarlar verməyə şərait yaradır. Cənab İlham Əliyev insanlara təsir göstərməyi, onları verilmiş qərarların perspektivlərinə inandırmağı və qarşıya qoyulmuş vəzifələrin icrası üçün hamını səfərbər etməyi gözəl bacarır.

Azərbaycan Prezidenti ən müxtəlif sahələr, qlobal siyasət, iqtisadiyyat, ölkənin təsərrüfat həyatının incəlikləri barədə dərin biliklərə malikdir. Açığını deyim ki, onun müxtəlif toplantılar zamanı etdiyi çıxışları, apardığı əhatəli təhlilləri, ortaya qoyduğu strateji baxışları izləyərkən bir insanın ən müxtəlif sahələrə aid bu qədər həcmli faktları, göstəriciləri, rəqəmləri necə yadda saxlamasına təəccüblənməyə bilmirəm.

Cənab İlham Əliyevə Azərbaycan xalqı qədər beynəlxalq ictimaiyyət, ölkəmizlə dost münasibətlərdə olan dövlətlərin rəhbərləri də böyük simpatiya bəsləyirlər. Çünki ona hər zaman inanmaq, güvənmək, etibar etmək olar.

İnam, etibarlı əməkdaşlıq, dürüstlük, səmimiyyət İlham Əliyev üçün çox böyük dəyərlərdir...

Azərbaycan Prezidenti bu dəyərlərə sadiqliyini verdiyi vədlərə xilaf çıxmamaqla, söz və əməllərinin üst-üstə düşməsi ilə, comərdliyi ilə həmişə sübuta yetirib...

❖❖❖

İnsanlar adətən özlərinə inanan, addımlarının düzgünlüyünə şübhə etməyən şəxsiyyətləri lider seçir, talelərini ona əmanət edirlər. Ulu Öndər Heydər Əliyevə tükənməz xalq rəğbətinin bir sirri də bunda idi. Azərbaycan vətəndaşları Heydər Əliyevin rəhbərlik etdiyi ölkənin bütün sərt sınaqlardan çıxa biləcəyinə, inkişaf yolu ilə aram-aram irəliləyəcəyinə, bir daha ağır təlatümlərlə üzləşməyəcəyinə əmin idilər. Çünki buna ilk növbədə Heydər Əliyev özü inanırdı və Ümummilli Liderin bu özünəinam hissi insanları da xatircəm edirdi.

Eyni missiyanı Azərbaycan xalqı üçün bu gün cənab İlham Əliyev yerinə yetirir...

2003-cü ildən bəri Azərbaycan Prezidentinin rəhbərliyi ilə əldə olunmuş bütün tarixi nailiyyətlərimiz bu özünəinam hissindən, həyata keçirilən siyasətin, verilən qərarların doğruluğuna əminlikdən gəlir və bu inam həyat reallıqlarında özünü doğruldur.

Münxen debatını dəyərləndirən amerikalı politoloq, beynəlxalq münasibətlər sahəsində ekspert Piter Teys Prezident İlham Əliyevin qətiyyətini yüksək qiymətləndirərək deyir: "Azərbaycanın mövqeyi gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin həllində üstün olacaq, Bakının fəal diplomatiyası həmişə uğurlu olub. Qeyd edim ki, çıxışı zamanı Prezident İlham Əliyev Avropa təhlükəsizliyi üçün önəmli olan Azərbaycanın tam ərazi suverenliyinin vacibliyini vurğuladı. Hesab edirəm ki, Azərbaycan Prezidenti bu vəziyyətdə uzaqgörən lider, Almaniya və Avropa ilə iqtisadi və təhlükəsizlik əməkdaşlığının daimi tərəfdarı kimi çıxış etdi". Ölkəsinin, eyni zamanda xalqının müstəqilliyini bu şəkildə qürurla, ləyaqətlə təmsil edən, müdafiə edən və qoruyan dövlət başçısı ilə yalnız qürur duymaq və fəxr etmək olar.

❖❖❖

Gələcəklə bağlı aydın strateji baxışlara malik liderlər inkişafın yeni dönəmlərində yaranmış dəyişiklik zərurətlərini öz qərarlarında həmişə nəzərə alırlar. Uğura aparan yol reallığa uyğun dəyişiklik hekayələrindən, davamlı islahatlardan keçir.

Dəyişiklik bir həyati reallıqdır... Dünyanın ən inkişaf etmiş ölkələri, çox dayanıqlı iri korporasiyaları da tez-tez dəyişiklik qərarları verməli olurlar. Bu, zamanla yarışmaqdır. Çünki həyat bir yerdə durmur, insanlar, onların istək və gözləntiləri, fəaliyyət modelləri, texnologiyalar dəyişir.

Aydın gələcəyin təminatı buna həmahəng dəyişməyi bacarmaqdadır. Əgər yeni dövrə transformasiya proseslərini həyata keçirməsən vaxtın sürətindən geri qalarsan. İnkişaf axınından uzaq düşərsən.

İdarəetmə mexanizmlərinin, tətbiq edilən texnologiyaların dəyişməsi, yenidən dizayn olunması və insanların da buna uyğunlaşması aparılan islahatların, ümumi transformasiya prosesinin ayrı-ayrı istiqamətləridir.

Azərbaycan xalqının şansıdır ki, dövlət rəhbərimiz bu prosesi vaxtında və uğurla həyata keçirir. Bu gün ölkəmizdə aparılan ardıcıl islahatlar, qurulan yeni idarəetmə strukturları, bu strukturlara gənc və peşəkar menecerlərin cəlbi dövrün çağırışlarını əks etdirir.

Azərbaycan həyatındakı böyük tarixi dəyişikliklərdən biri də 25 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq referendumu əsasında ölkəmizdə vitse-prezident institutunun yaradılması və Azərbaycan Prezidentinin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi oldu.

Bu, Azərbaycan insanlarının sosial sifarişi ilə üst-üstə düşən, vətəndaş olaraq hər birimizin ürəyindən xəbər verən bir təyinat idi. Belə yüksək etimadı öz nəcib əməlləri, tarix yazan şəxsiyyəti ilə çoxdan haqq etmiş Mehriban xanım Əliyeva isə bununla hər hansı dövləti status, ali vəzifənin gətirdiyi imtiyazlar qazanmırdı.

Son onilliklərdə Azərbaycan vətəndaşlarının dilinin əzbərinə, sevgi və rəğbət rəmzinə çevrilmiş Mehriban Əliyeva adı bu təyinata qədər də özündə bütün mənəvi dəyərləri, ali statusları ifadə edirdi...

Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmaqla Mehriban xanım üzərinə daha böyük məsuliyyət götürmüş oldu.

Bu, qəbul edilmiş inkişaf proqramlarının icrasına, Azərbaycanın öz milli hədəflərinə çatmasına faydaları baxımından Mehriban xanım Əliyevanın yüksək potensialını, menecerlik qabiliyyətini, idarəçilik bacarığını, təşkilatçılıq məharətini düzgün dəyərləndirərək, ona daha geniş və əhatəli işlər tapşıran Azərbaycan Prezidenti qarşısında məsuliyyətdir...

Ona inanan, çətinliyə düşəndə adına üz tutan, Mehriban xanımın ana qayğısından, həssaslığından, insanlara sevgisindən, xeyirxahlığından, şəfqətindən öz nəsibini alan, məşğul olduğu bütün işlərə necə sidq-ürəklə, vicdanla, sevgi ilə yanaşıb ortaya real nəticələr qoyduğunu görərək dövlətimizə, vətəndaşlarımıza xidmət üçün ona daha geniş səlahiyyət verilməsini arzu, hətta yeri gələndə tələb edən Azərbaycan insanları qarşısında məsuliyyətdir...

Aradan ötən 3 il isə bu təyinatın nə qədər düzgün olduğunu, Mehriban xanım Əliyevanın Azərbaycan Prezidentinin inam və ümidlərini, vətəndaşların gözləntilərini bu dəfə də doğrultduğunu, dərk edilmiş məsuliyyət hissinin diktəsi ilə bu vəzifədə də mükəmməl örnəklər yaratdığını bir daha göstərdi.

Mehriban xanım özü bir mükəmməllik nümunəsidir...

İndiyə qədər onun adı olan, rəhbərliyi altında həyata keçirilən bütün layihələr qüsursuz yerinə yetirilib. Ələ zərrəbin götürüb bir-bir nəzərdən keçirsən belə o layihələrdə unudulmuş, diqqətdən kənarda qalmış hansısa bir detalı, el dilində desək, yola vermə cəhdini, göstəri xatirinə təqdim edilmiş keyfiyyətsiz bir işi tapa bilməzsən. Çünki bunların hər birini Mehriban xanım özü bir-bir yoxlayıb. Əgər çatışmayan məqamlar varsa, aradan qaldırılmasına nail olub, insanlara qüsursuz işlər, kəm-kəsirsiz nəticələr, yarımçıq olmayan həllər təqdim edib.

❖❖❖

Mehriban xanım milli dövlətçilik tariximizdəki bir çox ilklərin müəllifidir...

Və dövlətimizin də, xalqımızın da, elə tariximizin də şansıdır ki, bu ilkləri belə bir mükəmməl şəxsiyyət yaradıb. Öz mükəmməlliyi ilə bu ilklərin də ən mükəmməl meyarlarını ortaya qoyub.

Mehriban xanım Əliyeva tariximizdə rəsmən ölkənin birinci xanımı institutunu formalaşdırmış, bu statusu daşıyan şəxsin davranış qaydalarını, sosial məsuliyyətini, gördüyü işlərin istiqamətlərini müəyyənləşdirən və Azərbaycanın birinci xanımı kimi insanların böyük sevgisini qazanan, qayğıkeş ana misalı yüksək humanizmi, sadəliyi, doğmalığı, insanlara həssaslığı ilə vətəndaşların dövlətə, dövlət rəhbərimizə rəğbətini daha da artıran, dövlət-vətəndaş münasibətlərinə maraqlı çalarlar gətirən şəxsiyyətdir...

Mehriban xanım Əliyeva ötən əsrin əvvəllərində fəaliyyət göstərən xeyriyyə cəmiyyətlərinin fəaliyyətindən sonrakı böyük bir fasilənin ardınca müstəqillik, azad bazar iqtisadiyyatı dövründə Azərbaycanın Heydər Əliyev Fondu kimi geniş fəaliyyət dairəsinə malik ilk belə ictimai təşkilatını yaratmış, bu fondun sosial məsuliyyət layihələri ilə bütün dünyada ölkəmizə böyük nüfuz qazandırmış ictimai xadimdir...

Mehriban xanım Əliyeva Avroviziya Beynəlxalq Mahnı Müsabiqəsi, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları kimi çox genişmiqyaslı, hətta illər əvvəlin şərtləri ilə baxdığımızda ölkəmizdə keçirilməsi mümkünsüz görünən qlobal tədbirlərin təşkilati işlərini qısa zamanda və ən yüksək səviyyədə, inanılmaz qabiliyyətlə yerinə yetirmiş, bu cür beynəlxalq tədbirlərin, əslində, necə keçirilməli olduğunu bütün dünyaya göstərmiş, onların yeni təşkilati standartlarını formalaşdırmış menecerdir...

O, eyni vaxtda həm daha çox Qərb dünyasının dəyərlərini əks etdirən UNESKO-nun, həm də Şərq aləminin dəyərlərinə bağlı ISESCO-nun xoşməramlı səfiri adını daşıyan nadir şəxsiyyətdir...

Mehriban xanım Əliyeva dünyanın bu iki mötəbər qurumunun belə yüksək səlahiyyət verdiyi ilk insandır...

O, mədəniyyətlərarası dialoq, multikulturalizm, tolerantlıq ideyalarının yayılmasına töhfə verən fəaliyyəti, 2008-ci ildən başlanmış, BMT kimi mötəbər təşkilatın da təqdir etdiyi "Bakı prosesi" çərçivəsində paytaxtımızda təşkil olunan beynəlxalq humanitar forumların təşkilatçısı, dünyanın müxtəlif ölkələrində minlərlə insanın həyatına fayda gətirən humanitar layihələrin müəllifi kimi bu iki qurumun xoşməramlı səfirinin, əslində, necə davranmalı olduğunu göstərir. Təkcə daşıdığı statuslarla deyil, bu statuslarda yerinə yetirdiyi xoşməramlı missiya ilə də bir çox ilklər yaradır.

Mehriban xanım Əliyeva adı tarix boyu bir çox yüksək dəyərlərlə assosiasiya olunmuş, dəyərlərin rəmzinə çevrilmiş Azərbaycan qadınının bu haqqını ən yüksək səviyyələrdə rəsmiləşdirən, Azərbaycan qadını adını ən böyük ucalıqlara yüksəldən və ölkəmizdə qadın fəallığı ənənələrinin inkişafına tarix boyu bu qədər böyük töhfələr verən ilk xanım liderdir...

❖❖❖

O, Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsindəki 3 illik fəaliyyəti ilə milli dövlətçilik tariximizdə bu vəzifənin parlaq ənənələrini, konkret meyarlarını da formalaşdırdı.

Dövlət idarəçiliyi sistemində Birinci vitse-prezident institutu yaradıldıqdan sonra bu vəzifəni daşıyacaq şəxsin hansı işləri və necə görəcəyi çoxlarına maraqlı idi. Azərbaycan Prezidenti bu vəzifəyə məhz Mehriban xanım Əliyevanı təyin etməklə dövlətçilik ənənələrimizdəki belə bir ilkin - Birinci vitse-prezidentlik təcrübəsinin ən mükəmməl nümunələr əsasında formalaşmasına vəsilə oldu.

Mehriban xanım Əliyeva bu 3 illik fəaliyyəti ilə göstərdi ki, ölkənin Birinci vitse-prezidenti üzərinə götürüb fədakarcasına yerinə yetirdiyi çoxsaylı vəzifələrlə, həyata keçirilən dövlət siyasətinə, insanlara, cəmiyyətə verdiyi faydalarla, yaratdığı dəyərlərlə dövlət rəhbərinin ən yaxın silahdaşı olmalıdır.

Gördüyü işlərə hər hansı vəzifə öhdəliyi kimi yox, qəlbinin sevgisi ilə yanaşmalıdır, bu işləri vicdan borcu kimi yerinə yetirməlidir, başqaları üçün faydalı olmaqdan ruhani məmnuniyyət hissi duymalıdır.

Xalqla dövlət arasında mənəvi körpüyə çevrilməlidir, insanların sözünün, sosial qayğılarının, problemlərinin həllinə kömək istəklərinin dövlət institutlarına çatmasına mane olan bürokratik əngəlləri ortadan götürməlidir, onların arzularının tərcümanına çevrilməlidir.

Mehriban xanım göstərdi ki, ölkənin Birinci vitse-prezidenti olmaq hər bir azərbaycanlı ailəsinin doğma bir üzvü olmaqdır, onlara qəlbinin sevgisini, istisini verə bilməkdir...

Ərazilərimizin ermənilər tərəfindən işğalı nəticəsində yurd-yuvasından perik düşmüş və illərdir yataqxana hücrələrində zimistan çəkən məcburi köçkün ailələrini abadanlığa çıxarmaqdır, uşaq evlərindən birbaşa həyatın çətin yollarına atılan atasız-anasız gənclərin üzərinə qanad sərib onları iş, ev-eşik sahibi etməkdir...

Bu yurdun kimsəsiz körpələrinə öz doğma analarından da qayğıkeş ana, qocasına doğma övladlarından da həssas övlad, şəhid anasının, bacısının, həyat yoldaşının göz yaşlarını ən yaxın bir insanın sevgisi, təsəllisi ilə silən həmdəm olmağı bacarmaqdır...

Əcdadlarımızın min illərdən bəridir ki, bu torpaqlarda yaratdıqları zəngin mədəniyyətə sahib çıxmaqdır, mədəni sərvətin qorunması, gələcək nəsillərə ötürülməsi və bütün dünyada təbliği qayğısına qalmaqdır...

Azərbaycan insanını inkişaf etdirməkdir, sosiallaşmasına dəstək olmaqdır, kimliyindən asılı olmayaraq hər bir vətəndaş üçün öz imkanlarını, fərdi potensialını reallaşdırmaqdan ötrü bərabər imkanlar mühiti yaratmaqdır...

Azərbaycan gəncliyini vətənpərvərlik ruhunda tərbiyələndirməkdir, onları xeyirxahlıq, mərhəmət, şəfqət, insana, insanlığa sevgi ruhunda yetişdirməkdir, gənc nəslin gələcəyə ümidi olmaqdır, o gələcəyi birgə yaratmaqdan ötrü işin ən çətinindən, yükün ən ağırından yapışıb gəncliyin önünə düşməkdir, Vətənə, ümumən dünyaya, nəcib məqsədlərə xidməti hər kəs üçün bir könül işinə çevirməkdir...

Bütün bu nümunələr Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi ötən 3 il ərzində gördüyü işlərin, yaratdığı nümunələrin, əslində, məhdud və ümumiləşmiş bir hissəsidir...

Onun ən çətin problemlərinin həllinə kömək olduğu minlərlə insanı media göstərmir, Mehriban xanımın rəhbərlik etdiyi layihələr sayəsində müşkülləri asanlaşan, həyatı sahmana düşən, bir vaxtların əlçatmaz arzularına yetişən minlərlə insanın şükranlıq duyğuları yalnız ona ünvanlanmış təşəkkür məktublarında əks olunur, biz o işlərdən, o təşəkkürlərdən, o insanlardan, Mehriban xanımın o köməkdarlıqlarından xəbərsiz qalırıq...

Çünki bütün bunlar Azərbaycanın Birinci vitse-prezidenti üçün reklam, təbliğat elementi deyil, əsla...

Bütün bunlar Mehriban xanım Əliyeva üçün bir taledir, missiyadır...

O, öz tale işini, Vətən, tarix, insanlıq qarşısındakı ali missiyasını yerinə yetirir, dövlət rəhbərimizin həyata keçirdiyi siyasətə, bu siyasətdən bəhrələnən insanlara faydalı olmaqdan ötrü bütün imkanlarını ortaya qoyur və bu fədakarlığının, gördüyü nəcib işlərin mükafatını vicdanından alır.

Mehriban xanım Əliyeva 3 il əvvəl Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin olunana qədər də belə idi, bu gün də belədir, bundan sonra da öz tale missiyasına sadiq qalacaq...

❖❖❖

Həyat nə qədər müasirləşsə də, tarixi köklərin, arxetiplərin əlamətləri həyatın müxtəlif anlarında tez-tez özünü göstərir. Mənəvi dünyamızda Azərbaycan qadını və kişisinin obrazı ilə bağlı konkretləşmiş təsəvvürlər var. Azərbaycan qadını tarixən evin, ocağın bütövlüyünün, abadlığının, sahmanının, mənəvi dəyərlərinin qoruyucusu kimi çıxış edib, evin sosial qayğısını çəkib, xanım əllərinin səliqəsi, bərəkəti ilə evi gülüstana, rahatlıq, sevgi məkanına çevirib.

Azərbaycan kişisi isə evi, yurdu düşmənlərdən, fitnə-fəsadlardan qoruyub, yeri gələndə sinəsini sipər edib, döyüşüb, igidlik göstərib, yağıları yerində oturdub, ocağın firavanlığı üçün yaxında-uzaqda özünü oda-közə vurub və bu fədakarlığın gücünü, enerjisini hər zaman yurdda onu gözləyən, dəstək olan doğma insanların sevgisindən hiss edib.

İlham Əliyev - Mehriban Əliyeva tandemi ulularımızdan miras qalan bu mənəvi dəyərin dövlətçilik səviyyəsində təzahürüdür, Azərbaycan dövlətinin 10 milyonluq böyük bir ailəyə çevrilməsidir...

Münxen müzakirələrində də, səsimizi, ünümüzü dünyaya yetirdiyi başqa hər yerlərdə də Prezident İlham Əliyevi sarsılmaz edən, gücünə güc qatan bu böyük Azərbaycan ailəsindən duyduğu sevgi və dəstəkdir...

Bu Vətəndən, bu xalqdan, bu şəxsiyyətlərdən Tanrı da sevgisini, şəfqətini heç zaman əsirgəməsin!..

**Hüseynbala MİRƏLƏMOV,**
***Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri***

# Azərbaycan-İtaliya münasibətləri strateji səviyyəyə yüksəlib

Əvvəli 1-ci səh.

İlham Əliyevin Romada italiyalı həmkarı Sercio Mattarella, Nazirlər Şurasının Sədri Cüzeppe Konte, Senatın sədri Maria Elisabetta Alberti Kaselatti, Deputatlar Palatasının sədri Roberto Fiko, Roma meri Vircinia Raggi ilə görüşləri və imzalanan 28 sənəd səfər proqramının kifayət qədər zəngin və Azərbaycan-İtaliya münasibətlərinin dinamik inkişaf tempinə malik olduğunu göstərir. Eyni zamanda Prezident İlham Əliyevin səfəri çərçivəsində dövlət ziyafəti, "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli"nin açılışı münasibətilə keçirilən konsert proqramı, Azərbaycan Prezidentinin İtaliyanın dünyada məşhur olan 10-dan çox ən iri, aparıcı sənaye və maliyyə qruplarının rəhbərləri ilə birgə işçi naharı, biznes forum iki dövlət arasında münasibətlərin miqyasını və həm də İtaliyada Azərbaycanla əlaqələrin inkişafına xüsusi diqqətin göstəriciləridir.



Prezident İlham Əliyevin bu tarixi dövlət səfərinin nəticələrini təhlil edərkən bir daha görürük ki, iki ölkə arasında siyasi əlaqələr yüksək səviyyədədir. Təcrübəyə əsasən, ölkələr arasındakı siyasi əlaqələr mükəmməl olduqda bu, iqtisadi, ticarət və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradır. Bu mənada Azərbaycan və İtaliya arasında siyasi əlaqələrin mükəmməlliyi hərtərəfli əməkdaşlığın inkişafına təkan verir. Səfər çərçivəsində imzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə" müstəsna əhəmiyyət daşıyır. Sənədin bilavasitə Prezident İlham Əliyev və Baş Nazir Cüzeppe Konte tərəfindən imzalanması onun siyasi yükünü daha da artırır.

Təbii ki, bu cür siyasi münasibətlər və strateji tərəfdaşlıq, qeyd etdiyim kimi, iqtisadi-ticarət sahəsində əməkdaşlıqda xüsusi əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, İtaliya Azərbaycanın birinci ticarət və ixracat tərəfdaşıdır. Təkcə 2019-cu ildə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları təşkil edib. İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 92 faizi Azərbaycanın payına düşür.

İtaliya həm də TAP layihəsinin iştirakçısıdır. Məlum olduğu kimi, "Cənubi qaz dəhlizi"nin qolu olan TAP layihəsinin icrası ilə bağlı süni şəkildə əngəllər yaradılırdı. Məhz Azərbaycanla İtaliya arasındakı yüksək siyasi münasibətlərin nəticəsində erməni lobbisinin də fəal şəkildə yaratdığı bütün maneələr aradan qaldırıldı. Hazırda İtaliyada istehlak olunan neftin 17 faizi ölkəmizin payına düşür. TAP layihəsinin icrası isə Azərbaycanın İtaliya bazarlarında iştirakını daha da artıracaq.

Azərbaycanla İtaliya arasında əlaqələrin möhkəmləndirilməsində Heydər Əliyev Fondunun böyük xidmətləri var. Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Vatikanda və Romada həyata keçirilən layihələr həm İtaliya rəsmiləri, həm də Roma Papası tərəfindən böyük minnətdarlıq və razılıqla qarşılanır. Xüsusən Heydər Əliyev Fondu tərəfindən İtaliyada həyata keçirilən layihələrlə yanaşı, təşkil olunan tədbirlər iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin və xalqlararası təmasların inkişafına böyük töhfə verir. İtaliya Prezidenti S.Mattarellanın "2020-ci il - İtaliyada Azərbaycan Mədəniyyət İli" elan edilməsi ilə bağlı bəyanatı düşünürəm ki, hər birimizin ürəyincə oldu. Bununla əlaqədar İtaliyanın müxtəlif şəhərlərində təşkil olunacaq çoxsaylı tədbirlər ölkələrimizin mədəniyyətinin İtaliyada daha geniş kütlələrə çatdırılmasına, xalqlararası təmasların daha da güclənməsinə və Azərbaycan-İtaliya əlaqələrinin genişlənməsinə töhfə verəcək.

Onu da xüsusi qeyd etmək istərdim ki, hələ 2012-ci ildə Romanın görkəmli "Villa Borghese" parkında dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin qoyulması İtaliyada Azərbaycana və mədəniyyətimizə göstərilən ehtiramın ifadəsidir. Paris, Berlin və Vyanadan sonra dünyanın ən qədim şəhərlərindən biri olan Romanın mərkəzi hissəsində Azərbaycanın Mədəniyyət Mərkəzinin açılması da nəzərdə tutulur.

Dünya katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti də Azərbaycana və onun rəhbərliyinə qarşı xüsusi ehtiramla yanaşır. Azərbaycanın multikultural dəyərləri, ölkə rəhbərliyinin sivilizasiyalararası dialoqa verdiyi töhfələr Vatikan tərəfindən daim yüksək qiymətləndirilib. Heydər Əliyev Fondu tərəfindən Romada katakombaların bərpası, Vatikan Muzeyində Zevsin heykəlinin bərpasına və buradakı "Sistina" zalında yenidənqurma işlərinin aparılmasına dəstək verilməsi bütün İtaliya ictimaiyyəti tərəfindən dünya mədəni irsinə və mədəniyyətlərarası dialoqun inkişafına verilən ən önəmli töhfələrdən biri kimi qiymətləndirilir.

Fevralın 22-də Prezident İlham Əliyevin və Mehriban Əliyevaın Vatikanda Papa Fransisk ilə görüşləri, Mehriban Əliyevanın Papa Cəngavər Ordeninin ən ali dərəcəsi olan IX Piy Ordeninin Böyük Xaçı ilə təltif olunması həm də Azərbaycan-Vatikan münasibətlərinin yüksək səviyyəsini göstərdi. Bütün bunlar, o cümlədən sabiq Papa II İohan Pavelin və indiki Papa Fransiskin Azərbaycana, o cümlədən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana səfərləri iki dövlət arasındakı əlaqələrin yüksək qarşılıqlı ehtirama əsaslanmasından xəbər verir.

*Bütövlükdə, İtaliya və Vatikan səfərləri Prezident İlham Əliyevin yürütdüyü siyasətin qlobal miqyasda ehtiramla qarşılanmasının və özünün siyasi lider kimi dünyadakı nüfuzunun bariz təcəssümü kimi tarixə düşdü.*

***Nəsib MƏHƏMMƏLİYEV***

# «Xocalı harayı» Avropaya səs saldı












Əvvəli 1-ci səh.

Nə qədər ki, dünya XX əsrin dəhşətli faciəsi sayılan bu soyqırımına layiqli qiymət verməyib, günahkarlar cəzalandırılmayıb, dünya azərbaycanlıları susmayacaq, illər keçdikcə daha möhkəm hayqıracaq, səs salacaq bəşəriyyətə.

Fevralın 22-də Avropanın mərkəzi sayılan Almaniyada baş tutan Ümumavropa Qarabağ mitinqində olduğu kimi...

Bu möhtəşəm aksiya həqiqətən Avropaya səs saldı. Dünyanın 30-a yaxın ölkəsində fəaliyyət göstərən diaspor təşkilatlarının təşəbbüsü və Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə baş tutan aksiya Almaniyanın Berlin şəhərindəki Brandenburq qapıları yaxınlığındakı Paris meydanında keçirildi. Aksiyada Azərbaycan, Almaniya, Niderland, Macarıstan, Polşa, İspaniya, İtaliya, Belçika, İsveç, Latviya, Litva, Estoniya, Çexiya, Avstriya, İsveçrə, Norveç, Finlandiya, Fransa, Rumıniya, Xorvatiya, Böyük Britaniya, Yunanıstan, Moldova, Ukrayna, Gürcüstan, Türkiyə, ABŞ, Kanada və bir sıra başqa ölkələrdə yaşayan soydaşlarımız, eləcə də Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor təmsilçiləri iştirak etdilər. Bir sözlə, siyasi tərəfindən asılı olmayaraq Avropa ölkələrində yaşayan əksər azərbaycanlılar bu mitinqə qatıldılar.

Mitinq iştirakçıları "Qarabağ Azərbaycandır!", "Biz terrora yox deyirik!", "Azərbaycan ədalət tələb edir!", "Xocalıya biganə qalma!", "Dinc və günahsızların qatillərinə ar olsun!", "Erməni yalanlarına dur de!", "İşğalı dayandırın!", "Qarabağ haqqımızdır!" kimi şüarlarla beynəlxalq təşkilatlara çağırış etdilər.

Aksiya iştirakçıları 28 il əvvəl ermənilərin Xocalıda törətdikləri soyqırımına beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsini, işğal olunmuş Azərbaycan torpaqlarının geri qaytarılması üçün Ermənistana təzyiq göstərilməsini, yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların pozulmuş hüquqlarının bərpa edilməsini, münaqişə ilə bağlı qəbul olunmuş məlum beynəlxalq sənədlərə Ermənistanın riayət etməsini tələb ediblər.

Mitinq zamanı yerli sakinlərə, turistlərə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin acı nəticələrini, Ermənistanın təcavüzkar siyasəti sayəsində Azərbaycanın məruz qaldığı maddi və mənəvi itkiləri əks etdirən broşürlər paylanıldı.

Min nəfərdən çox soydaşımızın iştirak etdiyi Ümumavropa Qarabağ mitinqinin sonunda yekun sənəd qəbul edildi və bir sıra beynəlxalq təşkilatlara ünvanlandı.

Bu haray 2008-ci ildə, 12 il öncə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılmış "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasının davamıdır.

Bu dəfə minlərlə soydaşımız Avropada yumruq kimi birləşdi. Eynən Xocalı soyqırımının 20-ci, 25-ci və 27-ci ildönümlərində ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin öndərliyi ilə Azadlıq meydanından "Xocalı soyqırımı" abidəsinə edilən ümumxalq yürüşlərindəki kimi...

Bu möhtəşəm yürüşlərdə öndə gedən liderin arxasınca yürüyən 50-70 min insan "Xocalıya ədalət" hayqırırdı. Ali Baş Komandanın iştirakı ilə paytaxtda 3 dəfə keçirilən ümumxalq yürüşü Azərbaycan dövlətinin Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsi idi. Bu yürüş işğalçı Ermənistana və onun havadarlarına növbəti mesaj idi - xalq işğalla barışmır, barışmayacaq da...

Bir daha dünyaya bəlli oldu ki, ümumxalq yürüşü Azərbaycan xalqının sıx birliyini, işğal altındakı torpaqlarının azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini bir daha nümayiş etdirdi.

Bu mitinqdən bir neçə gün öncə Prezident İlham Əliyev Almaniyada Münxen Təhlükəsizlik Konfrasında işğalçı Ermənistanın dövlət siyasəti və Xocalı soyqırımı haqqında əsl həqiqətləri dünyaya bəyan etmişdi. Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri N.Paşinyan arasında debat təşkil olunmuşdu və dünya ictimaiyyəti canlı yayımlanan bu debat çərçivəsində Ermənistanın ifşası, xüsusən də Paşinyanın özünü utanc vəziyyətə salmasının bir daha şahidi olmuşdu.

Cənab İlham Əliyev belə mötəbər və vacib tədbirin tribunasından istifadə edərək diqqətə çatdırmışdı ki, dünya birliyi artıq Azərbaycan həqiqətlərini qəbul edir. Prezident 28 il öncə baş verən Xocalı soyqırımı barədə əsl həqiqətləri açıqlamış və bildirmişdi ki, bu məsələdə Azərbaycanı dəstəkləyənlərin sayı get-gedə artmaqdadır. Bu günə qədər 10-dan çox dövlət və ABŞ-ın 22 ştatı Xocalıda törədilmiş faciəni millətlərarası nifrət zəminində baş vermiş qırğın kimi tanıyıb, Avropa İnsan Haqları Məhkəməsi isə Xocalıda mülki əhalinin kütləvi şəkildə məhv edilməsini 2010-cu ildə "hərbi cinayətlərə və ya bəşəriyyət əleyhinə cinayətlərə bərabər tutulan xüsusilə ağır əməl" kimi tövsif edib. Lakin bu istiqamətdə hələ görüləsi işlər çoxdur.

Prezident İlham Əliyevin bu tövsiyəsindən sonra Brandenburq qapıları yaxınlığındakı Paris meydanına toplaşan soydaşlarımız Avropaya növbəti dəfə səs saldılar.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Novruz çərşənbələri



Qədim zamanlardan insanlar yaz fəslinin gəlişini intizarla gözləyib, havaların isinməsi ilə soyuqdan, çətinliklərdən, ehtiyacdan qurtulacaqları, bolluq-bərəkətin gələcəyi ümidi ilə qışın son dörd çərşənbəsini təntənə ilə qeyd ediblər. Belə ki, Novruz bayramına dörd həftə qalanda baharı qarşılamaq üçün xüsusi mərasimlər keçiriblər.

# Su çərşənbəsi

Həmin çərşənbələri həyat üçün vacib dörd ünsürlə - su, od, yel və torpaqla əlaqələndiriblər. İnanıblar ki, Novruz çərşənbələrində yazın nəfəsi növbə ilə suyun, ağacların, torpağın canına hoparaq onları oyadır, canlandırır. Xalq arasında onlara Boz ayın çərşənbələri də deyirlər.

Bu gün ilin ilk Novruz çərşənbəsi - Su çərşənbəsidir. Bu çərşənbəyə "Əzəl çərşənbə", "Sular Novruzu", "Gözəl çərşənbə" də deyirlər.

Novruz bayramının dörd çərşənbəsinin hər biri özünəməxsus qaydada qeyd olunur. Su çərşənbəsi də digər üç çərşənbədən müəyyən qədər fərqlənir. Adətən, ilk çərşənbə ərəfəsində hamı ev-eşiyini sahmana salar, evlərin divarları rənglənər, bağ-bağçalarda ağacların, gül kollarının dibi bellənər, qurumuş və artıq budaqları, zoğları kəsilər.

Məlumdur ki, su paklıq, təmizlik rəmzidir. Buna görə həmişə müqəddəs hesab edilib. Tədqiqatçılar da bu qənaətdədirlər ki, Su çərşənbəsi suya tapınma inamından qaynaqlanır. Xalqın inancına görə, birinci çərşənbə günü sular hərəkətə gəlir, təzələnir. Deyilənlərə görə, Su çərşənbəsi günü "təzələnmiş" su üstündən keçənlər azar-bezardan uzaq olarlar. İlk çərşənbədə kənd yerlərində gün doğmamış insanlar sübh çağı çay, dəniz və ya bulaq üstünə gedər, əl-üzlərini yuyar, sudan onun kimi şəffaf və gözəl bir ilin keçməsini arzulayarlar. Həmin gün axar su üzərindən atlanmaq, bir-birinin üstünə su çiləmək də uğura işarədir. Həmçinin inanca görə, Su çərşənbəsində lal axan sudan keçmək uğursuzluq əlaməti hesab edilir.

Su, ümumiyyətlə, sağlamlığın mənbəyi sayılır. Belə bir inam var ki, Su çərşənbəsi günü suyun gücü, şəfası daha da artır. Buna görə qədimlərdə insanlar həmin gün su kənarında, bulaq başında, çay qırağında suyun gözəlliyini, müqəddəsliyini, gücünü tərənnüm edən nəğmələr oxuyurdular. Evə su gətirər, həmin sudan içər, çay qoyarlar. Ənənəyə əsasən, Su çərşənbəsi axşamı süfrəyə təmiz su qoymaq lazımdır. Hamı bu sudan içməlidir. Süfrəyə su dağılması aydınlıqdır.

Su ilə bağlı el arasında elə adət-ənənələr, inanclar var ki, onlara yalnız Su çərşənbəsində deyil, hər zaman əməl olunur. Məsələn, səfərə çıxan adamın arxasınca su atarlar, odu su ilə söndürmək günah sayılır. Bundan başqa, yuxuda su görmək xeyrə yozulur, aydınlıq sayılır. Su ilə bağlı xalq arasında yayılan sınamalardan biri də insanların gördükləri qorxulu yuxuları suya danışmalarıdır. İnanırlar ki, bununla onları izləyən qəzalardan, bəlalardan uzaqlaşa biləcəklər.

İlk çərşənbə ilə bağlı adət-ənənələri və inanclarını xalqımız bu gün də yaşadır. Bunlardan biri də Su çərşənbəsində qadınların, qızların su ilə fallara baxmalarıdır. Onlar öz üzüklərini çıxarıb su dolu bir qaba atır, üstünü parça ilə örtürlər. Daha sonra bayatı deməyə başlayırlar. Hər bayatının sonunda qabın içərisinə baxmadan bir üzük çıxarır, sahibinə verirlər və onu həmin bayatıda deyildiyi kimi həyatın gözlədiyini düşünürlər.

Su çərşənbəsində baxılan başqa bir fala görə, qızlar stəkana su doldururlar. Bir üzük götürürlər. Üzük başqasının da ola bilər, amma nişan üzüyü olması vacib sayılır. Sonra saçlarından bir tel qoparıb ona həmin üzüyü bağlayırlar və suya salıb çıxarırlar. Sapa bağlanmış üzük stəkanın kənarlarına neçə dəfə dəyib səs çıxarırsa, falına baxılan adamın həmin yaşda evlənəcəyinə inanırlar.

Novruz bayramına qədər qeyd olunan bütün çərşənbələrdə ocaq qalamaq da ənənələrimizdən biridir. Bu da ilk çərşənbə ilə başlanır. Su çərşənbəsində hamının həyətində tonqal qalanır. Bununla bayram əhvali-ruhiyyəsi daha aydın nəzərə çarpır. İlk tonqalın su çərşənbəsində yandırılması buzların əriməsinin, qışın arxada qalmasının göstəricisidir. Bir daha qəlblərə ümid gəlir ki, qışın sərt günləri bitib. Kiçik çillə artıq öz yerini Boz aya verib. Bahar astanadadır.

Bahar fəslinin gəlişindən xəbər verən Novruz bayramı ilin başlanğıcı kimi də qəbul edilir. Su çərşənbəsi ilə Novruz bayramına hazırlıqlar başlayır.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# AHİK-də Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib

Fevralın 24-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) Xocalı soyqırımının 28-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, Xocalı soyqırımını ötən əsrin ən dəhşətli faciəsi adlandıran AHİK-in sədri Səttar Möhbalıyev bu hadisənin Azərbaycan xalqının qan yaddaşına yazıldığını diqqətə çatdırıb.

Qeyd edib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə qədim Xocalı şəhərini yerlə yeksan ediblər. Xəyanətkar qonşularımızın Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış edərək ərazilərimizdə törətdikləri vəhşiliklər heç bir çərçivəyə sığmır. Həm insani, həm də müharibə qanunlarına zidd olan bu cinayət bağışlanmazdır. O bildirib ki, Xocalı soyqırımında dinc sakinlər qəddarcasına qətlə yetirilib, qocalar, qadınlar, uşaqlar süngüdən keçirilib. Hələ bəşər tarixi belə tükürpədici mənzərə görməmişdi. Xocalı şəhəri bir gecənin içində yerlə yeksan edildi. İnsanlar öldürüldü, girov və əsir götürüldü, dözülməz işgəncələrə məruz qaldılar.



AHİK-in sədri qeyd edib ki, ermənilər Xocalı soyqırımını törətməklə Azərbaycan xalqının gözünü qorxutmaq, Qarabağın taleyini öz xeyirlərinə həll etməyi düşünürdülər. Çünki o dövrdə Azərbaycan hakimiyyətinə səriştəsiz, siyasətdən başı çıxmayan insanlar rəhbərlik edirdilər. Onların fərasətsizliyi erməni separatçılarının və havadarlarının torpaq iştahasını daha da artırdı. Vandalizm hələ də davam edəcəkdi, amma bunun qarşısını xalqın təkidi və tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider, dahi siyasətçi Heydər Əliyev ala bildi. Onun hakimiyyətə gəlişindən sonra müharibəyə, vətəndaş müharibəsinə son qoyuldu, ordu yenidən quruldu. Xocalı soyqırımına hüquqi siyasi qiymətin verilməsi də məhz Ulu Öndərin uzaqgörən siyasətinin nəticəsidir. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 26 fevral gününü Xocalı soyqırımı kimi elan etdi.

Səttar Möhbalıyev vurğulayıb ki, ölkəmiz Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı faciəsinin təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə siyasətinin qanlı səhifəsi adlandırıb. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xidmətlərini qeyd edən AHİK-in sədri bildirib ki, artıq bir sıra dünya ölkələri Xocalı soyqırımını tanıyıblar.

Qeyd edib ki, Azərbaycan Prezidentinin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində haqq-ədalət öz yerini tapacaq və 1 milyondan artıq azərbaycanlı məcburi köçkün öz yurd-yuvasına qayıdacaq.

Prezident İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransında Ermənistanın baş nazirinə dərs verməsi də bunu sübut edir. Dövlətimizin başçısı dünya ictimaiyyətinin gözü qarşısında tarixi faktlarla Paşinyanı susdurdu. Azərbaycan xalqı hər zaman Prezidentə dəstək verib və onun ətrafındadır.

Səttar Möhbalıyev bildirib ki, bəşəri və milli dəyərləri özündə birləşdirən Azərbaycan hər zaman sülhün, dostluğun, dinc və yanaşı yaşamağın tərəfdarıdır. Cənubi Qafqaz regionunda lider ölkələrdən olan Azərbaycanın nüfuzu getdikcə artır. Xalqımız inanır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi, əzəli torpaqlarımızın bütövlüyünü təmin edəcəyik. Xalqımıza qarşı törədilən cinayətlərin icraçılarının cəzalandırılmasına nail olacağıq.

Digər çıxış edənlər Xocalı soyqırımı günahkarlarının tezliklə cəzalanacaqlarına inamlarını ifadə edərək, torpaqlarımızın yaxın zamanda işğaldan azad ediləcəyindən əmin olduqlarını bildiriblər.

# Cəbhə bölgəsi dövlət qayğısının əsas ünvanıdır









Ağdamda 2019-cu ilin yekunlarına və 2020-ci ildə qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş yığıncaq keçirilmişdir. Yığıncaqdan əvvəl tədbirin keçirildiyi Quzanlı Mədəniyyət Evinin qarşısındakı geniş meydanda Ağdamda istehsal edilmiş yerli sənaye və kənd təsərrüfatı məhsullarının sərgisi nümayiş etdirilmişdir.

Hesabat yığıncağında Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov ötən ilin uğurlu yekunlarını təhlil etmiş, yeni ildə nailiyyətləri daha da artırmaq üçün zəruri təşkilat - təsərrüfat tədbirlərini, tikinti, abadlıq, quruculuq işlərini sürətləndirmək üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. O qeyd etmişdir ki, 2019-cu ildə rayon üzrə ümumi məhsul istehsalının həcmi 170.6 milyon manat olmuşdur. Bu, əvvəlki illə müqayisədə 3.7 milyon manat çoxdur. Hesabat ilində sənaye məhsulunun həcmi 13 milyon manat, kənd təsərrüfatı məhsullarının həcmi 134.5 milyon manat, ticarət dövriyyəsi 14.5 milyon manat olmuş, il ərzində tikinti-quraşdırma işlərinə 7.6 milyon manat vəsait sərf edilmişdir.

Ağdam rayonu ərazisinin təxminən dörddəüç hissəsi uzun illərdir ki, Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu gün Ağdam kəndlisi bütün səy və bacarıqlarını sərf edərək var qüvvəsi ilə çalışır ki, məhdud torpaq sahəsindən daha çox məhsul götürsün, ölkənin ərzaq bolluğuna öz sanballı töhfəsini versin.

Yığıncaqda Prezident İlham Əliyevin Ağdama, ağdamlılara davamlı qayğısı dönə - dönə minnətdarlıqla vurğulandı. Bu qayğı cəbhə bölgəsində yaşayan insanların qələbəyə inamını artırır. Düşmənlə üz-üzə bir şəraitdə yaşayan ağdamlıları hər zaman ayıq-sayıq olmağa, gerçək fədakarlıq nümunəsi göstərməyə ruhlandırır.

Dövlət başçısının kənd təsərrüfatında ənənəvi sahələri inkişaf etdirmək barədə tapşırıq və tövsiyələri Ağdam kəndlisinin fəaliyyətinə yeni istiqamət vermişdir. Hesabat ilində kənd əməkçiləri rayon ərazisində 12. 278 hektar sahədə buğda, 2.215 hektar sahədə arpa əkib, aqrotexniki qaydalar əsasında becərmiş, nəticədə 55.530 ton taxıl istehsal edilmiş, hər hektarın məhsuldarlığı orta hesabla 38.4 sentnerə çatdırılmışdır. Ötən il rayonun torpaq istifadəçiləri 4.497 hektar sahədə tərəvəz, 373 hektar sahədə kartof, 1.553 hektar sahədə təzə yonca, 309 hektar sahədə şəkər çuğunduru əkib-becərmiş, son nəticədə 105,441 ton tərəvəz, 6.025 ton kartof, 13.245 ton şəkər çuğunduru istehsal etmişdilər.

Rayonun pambıqçıları keçən il böyük uğura imza atmışlar. 2.600 hektar sahədə pambıq əkən tarla bahadırlarının gərgin əməyi sayəsində tarlalarda bol məhsul yetişdirilməsi təmin edilmiş, məhsul son qramınadək yığılıb tədarük məntəqələrinə təhvil verilmişdir. Bütövlükdə 7.315 ton “ağ qızıl” tədarük olunmuş, hər hektarın orta məhsuldarlığı 28.1 sentnerə yüksəldilmişdir. Ayrı-ayrı fermerlər daha böyük uğur qazanmışlar. Quzanlı qəsəbə sakini, bacarıqlı fermer Mürsəl Qurbanovun pambıq əkib-becərdiyi 10 hektar sahədə hər hektarın orta məhsuldarlığı 61 sentner olmuşdur ki, bu da ölkədə ən yüksək göstəricilərdən biridir. Fədakar fermerin hünəri öz layiqli qiymətini almışdır. Respublika Prezidenti İlham Əliyevin imzaladığı sərəncamla Mürsəl Qurbanov 1-ci dərəcəli “Əmək ordeni” ilə təltif olunmuşdur.

Rayonda pambıqçılıqla yanaşı, gəlirli sahə olan baramaçılığın inkişafına da böyük önəm verilir. Baramaçılığın yem bazasını möhkəmləndirmək üçün zəruri tədbirlər görülür. Məhsuldar tut tinglərinin əkilib-becərilməsinə xüsusi fikir verilir. Keçən il 525 qutu ipək qurdu toxumunu aqrozootexniki qaydalar əsasında becərən kümçülər nəticə etibarilə 17.1 ton barama istehsal etmişlər.

Ötən təsərrüfat ilində digər sahələrlə yanaşı, heyvandarlığın inkişaf etdirilməsi də diqqət mərkəzində saxlanılmış, əvvəlki illərlə müqayisədə xeyli irəliləyişə nail olunmuşdur. Təsərrüfatlarda iribuynuzlu mal-qaranın sayı 42.297 başa catdırılmışdır ki, bu da ötən ildəkindən 663 baş çoxdur. Qoyunların sayı isə 104.768 başdır. Hesabat ilində 4.734 ton ət, 37.873 ton süd, 15.019 min ədəd yumurta istehsal olunmuşdur.

Yığıncaqda Prezident İlham Əliyevin ünvanına dəfələrlə minnətdarlıq səslənmişdir. Bu, cəbhə bölgəsində yerləşən Ağdama, gündəlik həyatlarında müxtəlif çətinliklərlə üzləşən, eyni zamanda hər zaman dövlətinə və Prezidentinə sədaqətli olan ağdamlılara göstərilən böyük qayğı və diqqətin məntiqi əks-sədası kimi qiymətləndirilməlidir. Düşmən qüvvələri ilə təmas xəttinə yaxın olan yaşayış məntəqələrinin erməni silahlı birləşmələrinin iriçaplı silahlarından və artilleriya qurğularından intensiv atəşə məruz qalması nəticəsində mülki əhaliyə dəymiş ziyanın aradan qaldırılması istiqamətində görülən işlər bölgə sakinlərində böyük razılıq doğurur. Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2018-ci il tarixli sərəncamına əsasən, 19 yaşayış məntəqəsində mülki əhalinin mənzil-məişət şəraitinin yaxşılışdırılması üçün 139 ailənin yaşadığı 121 fərdi evin bərpası başa çatdırılmışdır.

Hesabat ilində bölgədə yol infrastrukturu əsaslı şəkildə yaxşılaşdırılmış, tikinti, abadlıq-quruculuq işləri geniş vüsət almışdır. Tərtər-Hindarx avtomobil yolunun Ağdam rayonu ərazisindən keçən 14 kilometrlik hissəsi bərbad vəziyyətdə olduğu üçün həmin yola yeni asfalt örtüyü salınmış və kənarlarında dayanacaqlar tikilmişdir. Yolboyu 300 ədəd müxtəlif yol nişanları quraşdırılmışdır. Dövlət başçısının müvafiq sərəncamı ilə Ağdam rayonunun cəbhə xəttinə ən yaxın yaşayış məntəqələrini birləşdirən və uzunluğu 5,6 kilometr olan Korqışlaq-Mirəşəlli-Əhmədağalı-Çıraqlı avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Quzanlı qəsəbəsindən Xındırıstan kəndi istiqamətində 1,6 kilometr uzunluğunda olan yola yeni asfalt örtük salınmış, kənarları abadlaşdırılmışdır.

Rayon icra hakimiyyətinin Dövlət Neft Şirkətinin rəhbərliyi ilə apardığı səmərəli danışıqlar nəticəsində rayon ərazisində fəaliyyət göstərən, əvvəllər heç bir istilik sistemi olmayan 34 məktəb və 9 uşaq bağçası binasına təbii qaz xətti çəkilmişdir. Məcburi köçkünlər üçün dövlət vəsaiti hesabına tikilmiş, laqeyd münasibətə görə qazlaşdırılmamış 15 ev təbii qazla təmin olunmuş, məcburi köçkün ailələri məişət rahatlığına qovuşdurulmuşdur. Əhmədağalı kənd körpələr evi-uşaq bağçası əsaslı təmir edilmiş, bina istilik sistemi və bütün lazımi inventar və avadanlıqlarla təchiz olunmuş, həyəti abadlaşdırılmış, bağçaya asfalt yol çəkilmişdir. Rayon icra hakimiyyəti binasının yaxınlığında müasir üslubda layihələndirilmiş üçmərtəbəli, yaraşıqlı “qonaq evi” inşa olunmuşdur.

Rayon ərazisində salınmış məcburi köçkünlər üçün qəsəbələrin ərazisində uzun illər istifadəsiz qalıb yararsız hala düşmüş 11 qeyri-yaşayış binası rekonstruksiya olunaraq 22 mənzil formasında yaşayış üçün tam yararlı vəziyyətə gətirilmişdir. Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün 20 fərdi ev tikilib istifadəyə verilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrini fəaliyyət proqramı kimi qəbul edib rayon əhalisinə nümunəvi xidməti özünün əsas məqsədinə çevirən icra hakimiyyətinin həyata keçirdiyi məqsədyönlü tədbirlər bölgədə sağlam mənəvi-psixoloji mühitin yaranmasına əhəmiyyətli təsir göstərir, xalq-dövlət birliyinin yenilməzliyini stimullaşdırır. Evoğlu kəndində məskunlaşmış 3 şəhid anası Qənirə Əhmədovaya 3 otaqlı ev tikilmiş və mebellə təmin olunmuşdur. Bərdə şəhərində ağdamlı məcburi köçkünlərin yaşadığı dördmərtəbəli binada 15 ədəd ikiotaqlı və 3 ədəd birotaqlı mənzillər tam təmir edilərək sakinlərin istifadəsinə verilmişdir. Quzanlı qəsəbəsinin Daş evlər adlanan ərazisində məcburi köçkünlərin yaşadıqları 49 evdə təmir işləri aparılmışdır.

İkinci Alıbəyli qəsəbəsində məcburi köçkün, övladı leykoz xəstəsi olan və ağır şəraitdə 1 otaqlı evdə yaşayan, əvvəllər etdiyi çoxsaylı müraciətləri cavabsız qalan Sadıqova Səadət İmdad qızının mənzil şəraiti yaxşılaşdırılmış, ailə üçün əlavə 1 otaq və hamam tikilmiş, ev lazımi əşyalarla təmin edilmişdir. Üçoğlan kəndi ərazisində Əfruz Allahverdiyevanın, Xındırıstan kəndində məskunlaşmış məcburi köçkünlər Aminə İskəndərovanın, Əsmər Ağayevanın, Etibar Abbasovun, Təzəkənd qəsəbəsində Sima İbrahimovanın, Quzanlı qəsəbəsində Murtuza Abbasovun, Uçoğlan kəndində Yasəmən Sadıqovanın, Evoğlu kəndində Yaqub Əliyevin, Bakı şəhərində Elza Qeybalıyevanın, Mingəçevir şəhərində Pənah Məmmədovun evlərində müxtəlif təmir-bərpa işləri görülmüş, Qax rayonunda olan, Ağdamda şəhid olmuş hərbçi mayor Aqil Omarovun ailəsinin evi əsaslı şəkildə təmir edilmişdir. Əlbəttə, bunlar Ağdam Rayon İcra Hakimiyyətinin qayğı və diqqəti ilə əhatə olunan əhalinin tam siyahısı deyil. Əsas olan odur ki, bölgə əhalisi rayon rəhbərliyinin simasında dövlətin öz vətəndaşına ünvanlanan qayğısından yetərincə bəhrələnir, məmur-vətəndaş münasibətindən razı qalır, dövlət başçısına sədaqət və etibarını hər məqamda fəal vətəndaş mövqeyi ilə büruzə verir.

Yığıncaqda təhsil, səhiyyə, mədəniyyət, rabitə xidməti sahələrində qazanılmış uğurlar, yol verilmiş nöqsanlar da prinsipiallıqla təhlil edildi. Sahibkarlığın inkişaf etdirilməsi üçün həyata keçirilən məqsədyönlü tədbirlər də diqqətə çatdırıldı.

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Əflatun Rufiyev çıxış etmişdir.

Yığıncaqda əminliklə qeyd olundu ki, qazanılmış nailiyyətlər qətiyyən arxayınlıq yaratmır. Əmək meydanında hünər göstərən ağdamlılar işğal altındakı torpaqların azad edilməsi uğrunda müqəddəs savaşa hər an hazırdırlar. Bölgədə hər kəs birmənalı olaraq inanır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasət böyük Qələbəni tezliklə reallaşdıracaqdır.

Yığıncağın sonunda Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Prezident İlham Əliyevin Sərəncamı ilə təltif olunmuş Mürsəl Qurbanova 1-ci dərəcəli “Əmək ordeni”ni təqdim etmişdir.

**_Lazım QULİYEV,_**
**_“Azərbaycan”_**

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Məzahir Pənahovun sədrliyi ilə fevralın 24-də Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.



Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda 2020-ci il fevralın 9-da Azərbaycan Respublikasının Milli Məclisinə keçirilmiş seçkilərlə bağlı MSK-ya daxil olan müraciətlərə baxılıb. Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər, maraqlı subyektlərin və ərizəçilərin də iştirakı ilə geniş müzakirə edildikdən sonra müvafiq qərarlar qəbul olunub.

Komissiya müxtəlif mənbələrdən əldə olunan məlumatlar əsasında Milli Məclisə seçkilər keçirilən 20 seçki məntəqəsində - 15 saylı Yasamal birinci seçki dairəsinin 10, 19, 28 və 29, 29 saylı Səbail seçki dairəsinin 23, 42 saylı Sumqayıt ikinci seçki dairəsinin 7 və 32, 63 saylı Sabirabad birinci seçki dairəsinin 28, 64 saylı Sabirabad ikinci seçki dairəsinin 1, 71 saylı Masallı kənd seçki dairəsinin 33, 91 saylı Ucar seçki dairəsinin 1, 94 saylı Bərdə kənd seçki dairəsinin 1, 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsinin 21, 108 saylı Ağstafa seçki dairəsinin 26, 117 saylı Oğuz-Qəbələ seçki dairəsinin 29, 30 və 43, 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsinin 36 və 125 saylı Zəngilan-Qubadlı seçki dairəsinin 48 və 50 saylı seçki məntəqələrində seçicilərin iradəsinin müəyyənləşdirilməsinə imkan verməyən və Seçki Məcəlləsinin tələblərinə zidd olan halları nəzərə alaraq, həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrini ləğv edib.

Kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılan iclasda cari məsələlərə də baxılıb.

# DSX: “Təmas xəttində Ermənistan ordusunun diversiya cəhdinin qarşısı alınıb”

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədindəki təmas xəttində növbəti dəfə atəşkəs rejimini kobud şəkildə pozmaqla təxribat törədib.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 24-də saat 07:00 radələrində Ermənistan silahlı qüvvələrinin Noyemberyan rayonunun Koti kəndi yaxınlığında yerləşən bölmələrindən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım kəndi istiqamətindəki sərhəd döyüş məntəqəsinə diversiya cəhdinin qarşısı alınıb. Ciddi itkilər verməyə məcbur olmuş düşmənin bir zabiti ağır yaralanıb, digər hərbi qulluqçusu öldürülüb.

Düşmənin diversiya qrupunun qumbaraatan və digər iriçaplı silahların tətbiqi ilə baş verən təxribatının qarşısı alınarkən sərhədçi əsgər Vəliyev İbrahim Ələmşah oğlu qəhrəmancasına şəhid olub.


## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınmasına dair 11.09.2019-cu il tarixində keçirilən açıq tenderdə göstərilən müddətdə ixtisas uyğunluğu üzrə tələblər pozulduğundan, iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

***açıq tenderə dəvət edir***

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək dəftərxana mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300.00 (üç yüz) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.03.2020-ci il saat 15:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **01.04.2020-ci il saat 15:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.04.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

***açıq tenderə dəvət edir***

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək təsərrüfat mallarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200.00 (iki yüz) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17.03.2020-ci il 16:00-dək** və tender təklifi ilə bank təminatı sənədlərini **01.04.2020-ci il saat 16:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.04.2020-ci il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# İnsanlığa qarşı amansız cinayət

*Əvvəli 1-ci səh.*

Həmin vaxta qədər keçmiş SSRİ rəhbərliyinin hərtərəfli dəstəyini alan ermənilərin Azərbaycana qarşı məkrli planlarının reallaşmasının qarşısını məhz Ulu Öndər Heydər Əliyev kəsirdi. Ermənilər və onların himayədarları yaxşı başa düşürdülər ki, Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə Azərbaycana qarşı heç bir iddialarını reallaşdıra bilməyəcəklər.

Artıq sübut olunmuşdur ki, ölkəmizin ermənilər tərəfindən ərazi bütövlüyünə qəsd planı əvvəlcədən hazırlanmışdı. SSRİ-yə rəhbərlik edən M.Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə yer alan ermənilər tərəfindən müdafiə olunan planın reallaşması üçün ciddi işlər görülürdü. Lakin planın praktik mərhələyə keçməsi Azərbaycan xalqının böyük oğlunun SSRİ-də mühüm rəhbər postlardan birində yer aldığı müddət ərzində mümkünsüz idi və bu həqiqətlə ermənilər, onların himayədarları birmənalı şəkildə barışırdılar. Bu səbəbdən ermənilərin təhriki və diktəsi ilə hərəkət edən M.Qorbaçov ilk növbədə Heydər Əliyevi tutduğu vəzifədən uzaqlaşdırmağa çalışırdı və təəssüf ki, buna da nail oldu. Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılmasının əsas səbəblərindən biri SSRİ siyasi rəhbərliyini ələ almış erməni lobbisinin təsir və təzyiqləri idisə, digər səbəb Qorbaçovun subyektiv hisslərin əsiri olması, özündən daha yaxşı idarəçilik qabiliyyətinə, səriştəyə malik bir şəxsin Kremldə işləməsini həzm edə bilməməsi idi.

Azərbaycanın böyük oğlunun Siyasi Bürodan uzaqlaşdırılmasından cəmi 15 gün sonra M.Qorbaçovun xeyir-duası ilə ermənilər Azərbaycana qarşı qəsd planlarının icrasına başladılar. 1987-ci ilin noyabrında M.Qorbaçovun məsləhətçisi olan qatı şovinist A.Aqanbekyanın Parisdə "Humanite" qəzetindəki bəyanatında bildirilirdi ki, Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana verilməsinə dair artıq Moskvanın razılığı var. Bütün bunları xatırlayan Heydər Əliyev deyirdi: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbekyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdır. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başlandı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmış, lakin tətbiq olunmasına mən ciddi maneə imişəm".

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi. Bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladılar. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat da formalaşdırıldı.

O dövrdə Azərbaycana rəhbərlik edən şəxslər artıq özünü qabarıq formada və aydın şəkildə büruzə verən Dağlıq Qarabağ münaqişəsinin çözümü istiqamətində hansısa praktik addımların atılmasında acizlik nümayiş etdirirdi. Yalnız Kremlin göstərişləri əsasında atılan addımlar Azərbaycan ərazilərinin qəsb olunması prosesini sürətləndirirdi. Qarabağ məsələsinin ortaya çıxması isə elə ilk dövrlərdə Moskvada olan Heydər Əliyevi ciddi narahat edirdi. Bu səbəbdən Qorbaçovla, onunla mümkün olmadıqda Siyasi Büronun digər üzvləri Liqaçovla, Çebrikovla, Kryuçkovla görüşüb problemin həllinə çalışırdı. Qarabağın əzəli Azərbaycan torpağı olmasına dair əlindəki sənəd və sübutları da Kreml rəhbərliyinə təqdim etmək istəyən Heydər Əliyevə rəsmi Kremlin cavabı belə oldu: "Biz Qarabağda erməni-azərbaycanlı münaqişəsi ilə bağlı problemi özümüz həll edəcəyik".

Belə vəziyyət - Azərbaycan rəhbərliyinin fəaliyyətsizliyi, təslimçilik mövqeyi ölkəmizin əzəli və tarixi ərazisi olan Dağlıq Qarabağda Ermənistanın mövqeyinin daha da güclənməsinə gətirib çıxarırdı. Erməni separatçılarının bu yerlərdə mövqelərinin güclənməsi və ona qarşı rəhbərlik səviyyəsində ciddi tədbirlərin görülməməsi isə ölkə ərazilərinin itirilməsinin, faciələrin, o cümlədən Xocalı soyqırımına gedən yolun başlanğıcını qoyurdu.

SSRİ rəhbərliyi Dağlıq Qarabağın tədricən Azərbaycandan ayrılması üçün müvafiq addımlar atmağa başladı. 1988-ci ilin fevralında Dağlıq Qarabağ Muxtar Vilayətinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyası vilayətin Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistanın inzibati-ərazi bölgüsünə daxil edilməsi barədə qərar qəbul etdi. Azərbaycan SSR Ali Soveti Konstitusiyaya zidd olan qərarı rədd etdikdən sonra Ermənistanın millətçi rəhbərləri "Daşnaksütyun" partiyasının "Türksüz Ermənistan" proqramını həyata keçirməyə başladılar. Bu isə tarixi Azərbaycan torpaqlarında yaranan, indiki Ermənistan ərazisində olan on minlərlə azərbaycanlıya qarşı böyük qəddarlıqlarla müşayiət olunan etnik təmizləməyə rəvac verilməsi demək idi.

## Köməksiz qalan dinc azərbaycanlı əhali

Elə həmin dövrdə ermənilərin Dağlıq Qarabağda da separatçı fəaliyyəti genişlənirdi. Ölkə rəhbərliyindən heç bir kömək görməyən azərbaycanlılar isə yaşadıqları ərazilərin müdafiəsi məqsədilə özləri fəaliyyətə başladılar. Ermənilərin qəsbkarlıq niyyəti bir çox yaşayış məntəqələri kimi, Xocalını da özünümüdafiəsini gücləndirməyə vadar etdi. 1988-ci il fevralın 12-də Xocalı rəhbərliyi Əsgəranda keçirilən yığıncağa dəvət olundu. Yığıncaqda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi V.Konovalovun, şöbə müdiri M.Əsədovun iştirakına baxmayaraq, ermənilər Ermənistana birləşmək istədiklərini açıq şəkildə bəyan etdilər. Xocalının sabiq icra başçısı Elman Məmmədov deyir ki, həmin yığıncaqdan çıxıb Xocalıya gəldikdən sonra ağsaqqallar və ziyalılarla təcili görüş keçirərək vəziyyəti müzakirə etdik. Elə həmin gündən Xocalının və ətraf kəndlərin müdafiəsi üçün müdafiə komitəsi yaradıldı. Bu məqsədlə postlar yaradıldı. Bu postlara çıxan dəstələrin isə silahları yalnız ov tüfənglərindən ibarət idi. Ermənilərin Xocalı və bütövlükdə Dağlıq Qarabağ üçün yaratdığı təhlükə ilə bağlı Bakıya, Moskvaya saysız-hesabsız teleqramlar vurulsa da, nəticə görünmürdü.

Belə bir vaxtda Ermənistanda yaşayan azərbaycanlıların vəziyyəti getdikcə ağırlaşırdı. Ermənistanda repressiyaya məruz qalan və tarixi ata-baba yurdlarından qovulan soydaşlarımız Azərbaycana pənah gətirərək ölkənin müxtəlif yerlərində, o cümlədən Xocalıda məskunlaşdılar. Onlara Xocalı rəhbərliyi tərəfindən torpaq sahəsinin ayrılmasını isə nə Əsgəran, nə də Xankəndi qəbul edirdi və bu qərarı özbaşınalıq kimi qiymətləndirirdilər.

Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən etibarən Xocalı bu problemin ağırlığını öz üzərində hiss edirdi. Ermənistandan qovulmuş soydaşlarımızın və Fərqanədən olan Ahıska türklərinin böyük bir dəstəsi məhz Xocalıya pənah gətirmişdi. 1500 Ermənistan qaçqını və 495 Ahıska türkü Xocalıda məskunlaşmış, onlara torpaq sahəsi ayrılmış, evlər tikilmişdi. O dövrdə, ümumiyyətlə, Xocalıda tikinti-quruculuq işləri geniş vüsət alırdı. Belə ki, 1988-ci ilin oktyabrında Azərbaycan hökuməti tərəfindən Xocalının sosial inkişafına dair xüsusi qərar qəbul edilmişdi. Bu qərarla əlaqədar ölkənin müxtəlif rayonları Xocalıya və bütövlükdə Qarabağa kömək göstərirdi. Azərbaycanın rayonlarından Xocalıya tikinti materialı daşınır, işçi qüvvəsi gəlirdi. Xocalı sürətlə tikilir, genişlənir və gözəl bir şəhərə çevrilirdi.

Ancaq təəssüf ki, Kremlin xeyir-duası ilə Ermənistandan olduğu kimi, Dağlıq Qarabağdan da azərbaycanlıların sıxışdırılıb çıxarılması prosesinə start verildi. Təkcə Xankəndidən 18 min azərbaycanlı qovuldu. Xankəndini tərk etməyə məcbur qalan azərbaycanlıların bir qismi yenə də pənah yeri kimi Xocalıya üz tutdu. Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə Kremldən gələn əmrlər əsasında hərəkət edir, xalqın taleyinə biganə yanaşırdı.

## Şəhərə ilk böyük hücum

Belə bir vaxtda Dağlıq Qarabağda yaşanan qarşıdurmanın xarakterik xüsusiyyətlərindən biri yollarda "daş müharibəsi"nin getməsi idi. Bu, əsas etibarı ilə Xankəndi-Xocalı-Əsgəran arasında özünü göstərirdi. Həmin istiqamətdə keçən yoldan azərbaycanlılara məxsus avtomobilləri ermənilər daşa tutur, onları əzir, sahiblərinə müxtəlif xəsarətlər yetirirdilər. Bunun əvəzi isə Əsgərandan Xankəndiyə, habelə əks istiqamətdə hərəkət edən və beləliklə, Xocalıdan keçmək məcburiyyətində qalan ermənilərə məxsus avtomobillərdən çıxılırdı. Ermənilər Xocalı maneəsinin mümkün qədər tez neytrallaşdırılmasına çalışır və kiçik bir həmlə ilə Xocalını məhv edəcəklərinə inanırdılar. Elə bu məqsədlə də 1988-ci il sentyabrın 18-də Xankəndidə keçirilən nümayiş meydanından 12 minə qədər erməni 10 kilometrlik məsafəni piyada qət edərək Xocalıya tərəf üz tutdu. Ermənilərdən irəlidə isə "KrAZ" və "KaMAZ" markalı 4 yük avtomobili gəlirdi. O da məlum oldu ki, ermənilərin arasında xüsusi təlim keçmiş döyüşçülər var. Bundan başqa, ermənilər benzin doldurulmuş butulkalarla, ucu itilənmiş dəmirlərlə silahlanmışdılar. Lakin bunlar Xocalı sakinlərini qorxutmadı. Əksinə, Xocalıya iki kilometr qalmış ermənilərə qarşı az bir qüvvə ilə həmləyə keçən xocalılılar onları geri oturtdular. Sonradan isə məlum oldu ki, həmin vaxt ermənilər arasında yaşanan qarmaqarışıqlıq nəticəsində onlardan yaralanan da olmuşdur. Hadisənin səhərisi günü Zori Balayan "YAK-140" təyyarəsi ilə 12 nəfər həkimlə birlikdə Ermənistandan Xankəndiyə gəldi. Yalnız sentyabrın 21-də Bakıdan Azərbaycan KP Mərkəzi Komitəsi Xocalıya nümayəndə heyəti göndərdi. Lakin bu nümayəndələr daha çox ermənilərə müqavimətə görə öz iradlarını bildirirdilər. Hadisədən az sonra mərkəzdən gələn istintaq qrupu isə baş verənlərə görə bir neçə Xocalı sakininin həbsinə dair qərar çıxardı. Elə bundan sonra yollarda və digər məntəqələrdə keşik çəkən sovet ordu qüvvələri erməniləri daha çox müdafiə etdi.

## Strateji əhəmiyyətli yaşayış məntəqəsi

Bu dövrdə artıq "daş müharibəsi" intensivləşir və odlu silahlardan daha çox istifadə olunurdu. Yerevandan Xocalı aeroportuna edilən gündəlik reyslərin sayı 30-a çatdırılmışdı. Həmin təyyarələrlə ermənilər Xankəndiyə hərbi sursat daşıyırdılar. Ancaq sonradan Xocalı polisinin fədakar əməyi sayəsində Ermənistandan gələn reyslərin sayı 4-ə qədər azaldı. Hətta Moskvanın bu məsələyə qəti etirazını bildirməsinə baxmayaraq, Xocalı polisi inadından dönmədi və sərnişin reyslərindən başqa heç bir yük təyyarəsinin Xocalı aeroportuna enməsinə yol vermədi.

Beləliklə, Dağlıq Qarabağ münaqişəsi fonunda ermənilərin əsas hədəflərindən biri olaraq Xocalını seçməsi heç də təsadüfi deyildi. Ermənilərin Xocalı şəhərini hədəfə almaqda əsas məqsədi bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan, strateji əhəmiyyətli maneəni aradan qaldırmaq idisə, digər tərəfdən, ümumiyyətlə, Xocalını yer üzündən birdəfəlik silmək idi. Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu olmayan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları daha uzağa hesablanmış məqsəd güdürdülər. Onların əsas niyyəti Dağlıq Qarabağı və digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Bununla da ermənilər Sovet ordusunun 366-cı alayının köməyi ilə tarixdə ən qanlı səhifələrdən birinin yazılmasına nail oldular. Beləliklə, ötən əsrdə Xocalı daha bir faciə yaşamış oldu. Həmin faciədən əvvəl də Xocalı öz tarixində bir neçə dəfə erməni təcavüzünə məruz qalmış, soyqırımlarına uğramışdı. Təkcə XX əsrin əvvəllərində - 1905-ci, 1906-cı, 1917-ci və 1918-ci illərdə də Xocalı dörd dəfə erməni təcavüzünə məruz qalmış, yandırılmış, talan edilmiş, dağıdılmış, lakin ayağa qalxaraq düşməndən qisasını almış, yenidən bərpa olunmuş və yaşamışdı. Amma sən demə tarix Xocalını daha bir qanlı faciə ilə sınağa çəkməyə hazırlaşırmış.

Ermənilərin niyyətini yaxşı bilən Xocalı sakinləri müəyyən müdafiə tədbirləri görürdülər. Düşmən isə yaxşı anlayırdı ki, Xocalının ələ keçirilməsi Qarabağ münaqişəsinin sonrakı taleyində həlledici rol oynayan əsas məqamlar sırasındadır. Ermənilərin diqqətini Xocalıya cəlb edən önəmli səbəblərdən biri onun geostrateji mövqeyi idi. 7000 əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, dağ silsiləsində, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri məhz buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Dağlıq Qarabağda hələ A.Volskinin hakimiyyəti dövründən Xocalı aeroportuna gündə 20-30 təyyarə enibqalxırdı. Onların əsas yükü silah və xarici ölkələrdən köməyə gələn könüllü və muzdlu əsgərlər idi. Dünyanın hər yerindən Dağlıq Qarabağ ermənilərinə kömək etmək üçün erməni könüllüləri daşınırdı. 1990-cı ilin noyabrında Əlif Hacıyev Xocalı təyyarə limanında Xətt Daxili İşlər Bölməsinin rəisi və Xocalı aeroportunun komendantı təyin olundu. Bu, ermənilərin silah daşımasının qarşısını müəyyən qədər aldı. Lakin yollarda qətl və təxribat hadisələri davam edirdi.

1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan faktiki olaraq Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub Qarabağa daxil oldu və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladı. Moskvadan və xaricdəki erməni diasporundan verilən dəstək, ovaxtkı Azərbaycan rəhbərliyinin yarıtmaz siyasəti nəticəsində ciddi müqavimətlə üzləşməyən ermənilər 1991-ci ilin oktyabrında Tuğ və Salakətin kəndlərini işğal etdilər. Bunun ardınca Xocavənd də işğalçıların nəzarəti altına keçdi.

## Erməni işğalına qarşı sipər

O dövrdə Xocalı yenə də ermənilərin işğal siyasətinin daha sürətlə genişlənməsinə mane olmağa çalışırdı. Belə ki, ermənilər azərbaycanlılar yaşayan kəndlərə hücum edəndə Xankəndiyə və ermənilərin məskunlaşdıqları digər yerlərə Xocalıdan müqavimət göstərilir və düşmənin öz niyyətini həyata keçirməsinə maneələr yaradılırdı. Lakin Xocalıya və Qarabağın düşmən hücumuna məruz qalan digər bölgələrinə ovaxtkı Azərbaycan iqtidarı tərəfindən lazımi yardımlar edilməməsi və hakimiyyət uğrunda gedən savaşlar ermənilərin öz niyyətini daha asan reallaşdırmalarına imkan verirdi. Məhz bunun nəticəsində 1992-ci il yanvarın 10-da ermənilər Axullu kəndini zəbt edə bildilər. Elə həmin ilin fevralında Malıbəyli və Quşçular kəndləri hücuma məruz qaldı. Xankəndidə yerləşən 366-cı alayın bilavasitə iştirakı ilə bu kəndlər də ermənilər tərəfindən işğal olundu. Malıbəyli və Quşçular kəndlərinin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı yenə də 366-cı motoatıcı alayın əsgər və zabit heyəti, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülər hesabına ermənilərin əlinə keçdi.

Artıq 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, yüksək mövqelər ermənilər tərəfindən tutulmuşdu. İndi ermənilər üçün əsas hədəf Xocalı idi. Xocalıda isə vəziyyət getdikcə ağırlaşırdı. Şəhər 1991-ci ilin oktyabrından blokadada idi. Oktyabrın 30-dan etibarən şəhərə gələn bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Belə vəziyyət şəhərə özünümüdafiə üçün silah, ərzaq və digər zəruri məhsulların çatdırılmasında ciddi problemlər yaradırdı. Ermənilərin hücumları isə ara vermirdi. 1991-ci il sentyabr ayının 24-də Ağdamdan Xocalıya fəhlə gətirən avtobus Əsgəranda daşqalaq edildi, sürücü və sərnişinlər ağır yaralandılar. Bundan iki gün sonra isə Xocalı polis şöbəsinin iki əməkdaşı maşında atəşə tutulub qətlə yetirildi. Ətraf erməni kəndlərindən hər gecə Xocalı "Alazan" və "Kristall" raket qurğularından atəşə tutulurdu. Noyabr ayından isə Xocalının Ağdama və Şuşaya çıxış yolları tamamilə bağlandı.

Həmin dövrdə Dağlıq Qarabağda erməni separatçıları daha da fəallaşdılar, 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ respublikası" adlanan oyuncaq dövlət yaradıldığını bildirdilər. Noyabr ayının 26-da isə Azərbaycan Ali Soveti Dağlıq Qarabağın muxtar vilayət statusunun ləğv olunduğunu bəyan etdi.

Proseslərin gedişi gərginliyi daha da ağırlaşdırırdı. Təcrid vəziyyətinə düşmüş Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması və içərisindəki 40 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən Xocalıya elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz hünərləri və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsindən, yerli milis qüvvələrindən və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.



Fevralın ikinci yarısından başlayaraq erməni silahlı dəstələri tərəfindən mühasirəyə alınmış Xocalı hər gün toplardan, ağır texnikadan atəşə tutulur, erməni dəstələrinin həmlələrinə məruz qalırdı. Şəhəri əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərinə avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısı, "Alazan" raket qurğuları, PDM, ZTR və tanklar cəmlənmişdi. Qüvvələrin əsas hissəsi isə Xankəndidə və Əsgəranda hücum əmrinə hazır dayanmışdı. Həmin dövrdə şəhərdə hələ 3 min nəfər yerli əhali olsa da, Xocalıya vertolyot da göndərilmirdi. Ermənilər istər canlı qüvvə, istərsə də hərbi texnika və silah sarıdan xocalılılardan müqayisəedilməz dərəcədə üstün idilər. Buna baxmayaraq, ölkə rəhbərliyi şəhərin xilası istiqamətində heç bir tədbir görmürdü.

Halbuki düşmənin Xocalını yeni əsas hədəf kimi seçməsi və buraya hücuma hazırlaşması barədə ovaxtkı Azərbaycan rəhbərliyinə lazımi məlumatlar verilmişdi. Baş verənlərdən mərkəzi hakimiyyət tam xəbərdar idi. Təəssüf ki, heç bir tədbir görülmədi.

## Tarixə qanla yazılan gün

Yaranan vəziyyətdən maksimum faydalanmağa çalışan ermənilər Xocalını daha tez ələ keçirməyə səy göstərirdilər. 1992-ci il fevralın 25-də saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə keçirilmiş silahlı qüvvələr, habelə Dağlıq Qarabağın millətçi ermənilərindən təşkil olunmuş qanunsuz silahlı dəstələr keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçdilər. Hücumda 366-cı alayın komandiri Zarviqorov Yuri Yureviç və mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında alayın 2-ci batalyonu, Nabokix Yevgeni Aleksandroviçin komandanlığı altında 3-cü batalyonu, həmçinin 1-ci batalyonun qərargah rəisi Çitçiyan Valeriy İsaakoviç, habelə alayda xidmət edən 50-dən çox erməni və digər millətlərdən olan zabit və gizirlər iştirak edirdilər. Eyni zamanda hücum zamanı 90-dan çox tank, piyadaların döyüş maşını, top və digər müasir hərbi texnikadan istifadə olundu.

Hücumdan əvvəl şəhər şiddətli top atəşinə tutuldu. Güclü artilleriya atəşi şəhərdə olan müdafiə postlarını və müdafiə nöqtələrini sıradan çıxardı. Bundan sonra gecə saat 1-dən başlayaraq 4-ə qədər piyadaların şəhərə daxil olması davam etdi. Şəhərdə axırıncı müqavimət nöqtəsi səhər saat 7-də susduruldu. Bu zaman yenə də 366-cı alayın texnikasından istifadə olundu.

Beləliklə, ermənilər çoxsaylı tanklar, PDM və zirehli transportyorların müşayiəti ilə Xocalını ələ keçirdilər. Onlar şəhərə daxil olduqdan sonra dinc əhalini xüsusi amansızlıqla qətlə yetirməyə başladılar. Azğınlaşmış düşmən mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara, bir sözlə, qarşılarına çıxan hər bir kəsə müxtəlif çaplı odlu silahlardan atəş açır, hərbi texnikanın altına salıb əzir, mühasirədən çıxıb qaçmağa müvəffəq olanları isə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürürdülər. Əsir və girov götürdükləri azərbaycanlılara da aman vermir, işgəncə ilə qətlə yetirirdilər.

## 613 nəfər qəddarlıqla qətlə yetirildi

Qətlə yetirilən insanların başlarının dərisi soyulur, müxtəlif əzaları kəsilir, gözləri çıxarılırdı. Qadınların qarınları yarılır, adamlar diri-diri torpağa basdırılır və ya yandırılır, meyitlər eybəcər hala salınırdı. Xocalıda mülki əhalinin düşünülmüş şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün qaçıb xilas olmaq istəyənlərin çoxu ərazinin çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişdir.

Faciənin törədilməsinə rəvac verənlər sırasında Ermənistanın sabiq prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan və işğalçı ölkənin indiki dövlət başçısı Serj Sarkisyan da vardı. Hələ 1992-ci ildə Levon Ter-Petrosyan erməni ordusuna müraciətində deyirdi: "Siz, ermənilər düşməni öldürərkən ürəyiyumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Dağlıq Qarabağ separatçılarına rəhbərlik edən Robert Koçaryan da eyni mövqenin sahibi idi. Ermənistanın indiki prezidenti Serj Sarkisyan isə 1992-ci ildə Xocalı soyqırımını törədən qüvvələrin komandanlarından olub, həmin qüvvələri təşkilatlandıraraq yüzlərlə insanın ölüm əmrini verib və beləliklə, soyqırımında şəxsən iştirak edib. Bu mənada Sarkisyanın Tomas de Vaalın "Qara bağ" kitabında yer alan aşağıdakı fikirləri də çox şey deyir: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Biz o stereotipi sındırdıq".

Faciə baş verən gün əsasən qadınlar, uşaqlar və qocalardan ibarət dəstə Qaraqaya tərəfə üz tutaraq Əsgəranın qarşısında, meşədə gizlənmişdi. Adamlar gecə şaxtalı havada səhərə qədər dayanıb gözlədikdən sonra dan yeri ağaran zaman meşədən çıxıb Ağdama tərəf hərəkət etmək istəyəndə pusquda dayanan ermənilərin güllələrinə tuş gəldilər. Təlaş və vahimə içərisində qaçan adamların bir qismi böyük çətinliklə Dəhraz kəndinə gəlib çıxsa da, orada yenə silahlı ermənilər tərəfindən kütləvi şəkildə qətlə yetirildilər, əsir götürüldülər. Kətik meşəsinə qaçanlardan da xeyli insan qətlə yetirildi. Silahsız insanlara qarşı kütləvi qətllər törədən, soyqırımı həyata keçirən ermənilər ən vəhşi üsullardan, işgəncə metodlarından istifadə edir, öldürülmüş insanların cəsədlərinin başına min bir oyun açırdılar.

28 il öncə - 1992-ci il fevral ayının 26-da Ermənistan silahlı birləşmələri imperiyapərəst qüvvələrin bilavasitə iştirakı və havadarlığı ilə Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş Xocalı soyqırımını törətdilər. Xocalı şəhərinin minlərlə əliyalın mülki əhalisi güclü müasir hərbi texnika ilə silahlanmış düşmənin qəfil və amansız hücumuna məruz qaldı. Ermənilər 613 nəfəri, o cümlədən 106 qadın və 63 uşağı xüsusi qəddarlıqla qətlə yetirdilər. 1275 nəfər əsir aparıldı, 150 nəfər itkin düşdü. Qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetirildilər, girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşdilər. Yeddi minlik əhalisi olan bütöv bir şəhər yerlə-yeksan edildi.

Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən mühakimə olunmalıdır. Bu qan yerdə qalmayacaq, Xocalı soyqırımında müqəssir olan hər kəs öz cinayətkar əməlinə və milli xəyanətinə görə xalq qarşısında mütləq cavab verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 32/386

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 22 fevral 2020-ci il tarixli 385 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Əsədli Anar Əsəd oğlu 2020-ci il fevralın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 33/168 saylı qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməklə pozulmuş seçki hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd A.Ə.Əsədli müraciətində 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə qeyd edilən seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntusu baş verməsini iddia etmiş, pozuntulara dair təqdim etdiyi video görüntüləri, həmçinin digər materialları araşdıraraq dairə seçki komissiyası qərarının ləğv edilməsini və seçki dairəsi üzrə seçkilərin nəticəsinin etibarsız sayılmasını xahiş etmişdir. O, müraciətini onunla əsaslandırmışdır ki, səsvermə günü seçki dairəsinin seçki məntəqələrində baş vermiş seçki pozuntuları ilə bağlı müvafiq sənədlər əlavə etməklə Mərkəzi Seçki Komissiyasına təqdim etdiyi şikayət aidiyyəti üzrə baxılması üçün dairə seçki komissiyasına göndərilmiş, dairə seçki komissiyası isə ətraflı araşdırma aparmadan seçki günü səsvermədə iştirak etmiş müxtəlif seçki subyektlərindən alınmış izahatlara əsasən müraciətin təmin edilməməsi barədə əsasız qərar qəbul etmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, A.Ə.Əsədlinin Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Namizəd A.Ə.Əsədli tərəfindən araşdırmaya əlavə olaraq seçki dairəsinin səkkiz məntəqə seçki komissiyasından əldə etdiyi səsvermənin nəticələrinə dair protokolun surəti təqdim olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasının mübahisələndirilən qərarının çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmişdir.

125 saylı Zəngilan - Qubadlı seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, namizəd A.Ə.Əsədlinin müraciəti əsasında aparılmış araşdırma ilə əlaqədar namizədin şikayətə əlavə etdiyi siyahıda qeyd olunmuş seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularına dair elektron məlumat daşıyıcısında olan görüntülər araşdırılmış, həmçinin səsvermə günü seçki məntəqələrində müşahidə aparmış siyasi partiya və qeyri-hökumət təşkilatlarını təmsil edən müşahidəçilərin, məntəqə seçki komissiyası üzvlərinin təqdim etdiyi izahatlarda şikayətdə göstərilən hallar təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Qeyd edilməsi zəruridir ki, göstərilən seçki dairəsi üzrə qeydə alınmış digər namizədlər Azadoğlu Nazim Azad oğlu və Kərimov Faiq Alməmməd oğlunun eyni məzmunlu müraciəti üzrə aparılmış araşdırmanın nəticəsi olaraq Mərkəzi Seçki Komissiyasının 20 fevral 2020-ci il tarixli 28/316 saylı qərarı ilə aşkar edilmiş pozuntularla əlaqədar həmin seçki dairəsinin 1, 10, 13, 32, 36, 37, 38, 39, 40, 55 və 59 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılması nəzərə alınmalıdır.

Qeyd edilən araşdırma sosial şəbəkələr vasitəsi ilə paylaşılan və şikayətçilərin araşdırmaya təqdim etdikləri elektron məlumat daşıyıcılarındakı videogörüntüləri və digər materialları əhatə etməklə seçki dairəsinin şikayətçilər tərəfindən mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilərin sərbəst şəkildə öz iradələrini ifadə etmələri müəyyən olunmuşdur.

Namizəd A.Ə.Əsədli tərəfindən müraciətə əlavə edilmiş 1 ədəd elektron məlumat daşıyıcısında olan görüntülərə baxış keçirilmiş və seçicilərin iradə ifadələrini müəyyənləşdirməyə imkan verməyən hallar müəyyən edilməmişdir.

Hazırkı araşdırma prosesində namizəd tərəfindən səsvermənin nəticələrinə dair 8 məntəqə seçki komissiyasının protokollarının surətinin təqdim edilməsi ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair rəsmi protokolları alınaraq onlara müqayisəli baxış keçirilmişdir. Baxış zamanı 48 və 50 saylı seçki məntəqələrinin səsvermənin nəticələrinə dair rəsmi protokollarındakı məlumatların şikayətçinin təqdim etdiyi protokol surətləri ilə müqayisədə fərqli olduğu aşkar olunmuşdur. Bu hal seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməlidir. Göstərilən pozuntular Seçki Məcəlləsinə görə həmin məntəqə seçki komissiyalarında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 48 və 50 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Beləliklə, 125 saylı Zəngilan - Qubadlı seçki dairəsinin qeyd edilən seçki məntəqələri üzrə göstərilən hal şikayətin qismən təmin olunması üçün hüquqi əsas yaratmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Milli Məclisə seçkilərdə 125 saylı Zəngilan - Qubadlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Əsədli Anar Əsəd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 22 fevral 2020-ci il tarixli 385 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 48 və 50 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 33/168 saylı qərarı ilə 48 və 50 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/387

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 358 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 106 saylı Tovuz - Qazax - Ağstafa seçki dairəsi üzrə qeydə alınmış namizəd Rəhimov Mütəllim Qara oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) adıçəkilən seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 16/49 saylı qərarından şikayət verərək, həmin qərarın və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

M.Q.Rəhimov müraciətində iddia etmişdir ki, 2020-ci il fevralın 9-da Milli Məclisə keçirilmiş seçkilərdə səsvermə günü 106 saylı Tovuz - Qazax - Ağstafa seçki dairəsinin seçki məntəqələrində yol verilmiş pozuntularla bağlı Mərkəzi Seçki Komissiyasına müraciət etmiş, həmin müraciət Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən aidiyyəti üzrə araşdırılması üçün dairə seçki komissiyasına göndərmişdir. Dairə seçki komissiyası müraciətin təmin edilməməsi barədə 19 fevral 2020-ci il tarixli 16/49 saylı əsassız qərar qəbul etmişdir. Həmin qərardan görünür ki, təqdim edilmiş faktlar ciddi araşdırılmayıb.

Namizəd M.Q.Rəhimov müraciətində qeyd edilən seçki dairəsinin bir sıra seçki məntəqələrində səsvermə günü qanun pozuntusu baş verməsini iddia etmiş, pozuntulara dair təqdim etdiyi 1 ədəd elektron məlumat daşıyıcısında olan video görüntüləri, həmçinin digər materialları araşdıraraq dairə seçki komissiyasının qərarının ləğv edilməsini və seçki dairəsi üzrə seçkilərin nəticəsinin etibarsız sayılmasını xahiş etmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, M.Q.Rəhimovun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Dairə seçki komissiyasından mübahisələndirilən qərarın çıxarılması üçün əsas olmuş sənədlər alınaraq araşdırılmışdır.

Dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, namizəd M.Q.Rəhimovun səsvermə günü qanun pozuntularının olduğunu iddia etdiyi 14, 21, 24, 25, 29, və 35 saylı seçki məntəqələri üzrə səsvermə günü müxtəlif maraqları təmsil etməklə həmin məntəqələrdə müşahidə aparmış çoxsaylı müşahidəçilər tərəfindən tərtib edilmiş aktlar və izahatlarla həmin seçki məntəqələrində iddia edilən pozuntuların baş vermədiyi, səsvermə prosesində və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində seçki qanunvericiliyinin tələblərinə riayət olunduğu, protokolların seçki məntəqələrində tərtib edildiyi və surətinin maraqlı seçki subyektlərinə verildiyi öz əksini tapmışdır.

Namizəd M.Q.Rəhimovun müraciətinə əlavə etdiyi 1 ədəd elektron məlumat daşıyıcısında olan video görüntülərə baxış keçirilərək müəyyən edilmişdir ki, həmin video görüntülərdə qanun pozuntusu kimi göstərilən hallar seçicilərin iradə ifadəsinə və səsvermənin nəticələrinə təsir etməyən hallardır.

Namizəd tərəfindən səsvermənin nəticələrinə dair seçki dairəsinin 6, 17, 18, 21, 26 və 27 saylı məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokollarının surətinin araşdırmaya təqdim edilməsi ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair rəsmi protokolları alınaraq onlara müqayisəli baxış keçirilmişdir. Baxış zamanı 21 saylı seçki məntəqəsinin səsvermənin nəticələrinə dair rəsmi protokolundakı məlumatların şikayətçinin təqdim etdiyi protokol surəti ilə müqayisədə fərqli olduğu aşkar olunmuşdur. Bu hal seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən pozuntu kimi qiymətləndirilməlidir. Göstərilən pozuntular Seçki Məcəlləsinə görə həmin məntəqə seçki komissiyasında səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 21 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Beləliklə, 106 saylı Tovuz - Qazax - Ağstafa seçki dairəsinin qeyd edilən seçki məntəqələri üzrə göstərilən hal şikayətin qismən təmin olunması üçün hüquqi əsas yaratmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 106 saylı Tovuz - Qazax - Ağstafa seçki dairəsi üzrə qeydə alınmış namizəd Rəhimov Mütəllim Qara oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 358 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 21 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 16/49 saylı qərarı 21 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/388

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 352 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 63 saylı Sabirabad birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Sadıqov Qiyas Böyükağa oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 47/133 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarının ləğvini, seçki hüquqlarının bərpası və müdafiəsi üçün qanunvericilikdə nəzərdə tutulan hərəkətlərin edilməsini, ehtimal olunan seçki saxtakarlığına yol vermiş vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsini xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Q.B.Sadıqov müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Q.B.Sadıqovun müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd Q.B.Sadıqov 63 saylı Sabirabad birinci seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

63 saylı Sabirabad birinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd Q.B.Sadıqovun müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü bir seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, bir seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Araşdırmaya təqdim olunmuş iş materiallarının və sosial şəbəkələrdəki görüntülərin tədqiqi zamanı seçki dairəsinin 28 saylı seçki məntəqəsi üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edilmişdir. Bu da həmin seçki məntəqəsində səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Göstərilənlərə əsasən müraciət qismən təmin olunmalı, 28 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 63 saylı Sabirabad birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Sadıqov Qiyas Böyükağa oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 28 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 47/133 saylı qərarı 28 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/389

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 370 və 379 saylı müraciətlərə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə qeydə alınmış namizədlər Əliyev Rüfət Azər oğlu və Rəhimov Allahverdi Xanlar oğlu 21 fevral 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət etmişlər. A.R.Əliyev həmin seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 29/95 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişlər.

A.X.Rəhimovun müraciəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.11-ci maddəsinin tələbinə əsasən müddət ötürülməklə verildiyindən ərizəçinin özünə geri qaytarılmalıdır.

R.A.Əliyevin şikayəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, şikayətçi komissiyanın iclasında iştirak etmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Namizədin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər materialları əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd 71 saylı Masallı kənd seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

71 saylı Masallı kənd seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizədin müraciəti əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları bir seçki məntəqəsi istisna olmaqla təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlarlardan müəyyən edilmişdir ki, bir seçki məntəqəsi istisna olmaqla həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Müraciətə əlavə edilmiş, məntəqə seçki komissiyaları tərəfindən qanunla müəyyən olunmuş qaydada tərtib olunaraq müşahidəçilərə verilən iki ədəd səsvermənin nəticələrinə dair protokolların nüsxələri ilə məntəqə seçki komissiyalarından dairə seçki komissiyasına təhvil verilmiş və tələb olunaraq müqayisəli tədqiq edilmiş protokollar arasında uyğunsuzluq müəyyən edildiyindən 33 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaranır.

Göstərilənlərə əsasən müraciət qismən təmin edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Rəhimov Allahverdi Xanlar oğlunun müraciəti müddət ötürülməklə verildiyindən ərizəçinin özünə geri qaytarılsın.
2. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 71 saylı Masallı kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əliyev Rüfət Azər oğlunun müraciəti qismən təmin edilsin, həmin seçki dairəsinin 33 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
3. Dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 29/95 saylı qərarı 33 saylı seçki məntəqəsi üzrə hissədə ləğv olunsun, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/390

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 361 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 08/18 saylı qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarının ləğvini, seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

D.R.Əhmədli müraciətində iddia etmişdir ki, dairə seçki komissiyası araşdırma apararkən onun təqdim etdiyi şikayət üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırma və Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

D.R.Əhmədlinin müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər seçki materiallarını əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizəd D.R.Əhmədli 94 saylı Bərdə kənd seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayət araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

94 saylı Bərdə kənd seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd D.R.Əhmədlinin müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü bir seçki məntəqəsi istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, bir seçki məntəqəsi istisna olmaqla, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Məntəqə seçki komissiyalarından dairə seçki komissiyasına təhvil verilmiş səsvermənin nəticələrinə dair yekun protokollar üzrə araşdırmaya zərurət yarandığından, həmin protokollara baxış zamanı 1 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticəsinə dair yekun protokolda seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilmişdir. Bu da həmin seçki məntəqəsində səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsas yaradır.

Göstərilənlərə əsasən müraciət qismən təmin olunmalı, 1 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 94 saylı Bərdə kənd seçki dairəsi üzrə qeydə alınmış namizəd Əhmədli Dadaş Rəşid oğlunun müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 1 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 08/18 saylı qərarı 1 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/391

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21, 22 fevral 2020-ci il tarixli 376 və 388 saylı müraciətlərə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizədlər Mehtiyeva Arzu Yusif qızı 2020-ci il fevralın 21-də, Abdullayev Ayaz Rəsul oğlu və digərləri 2020-ci il fevralın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 18 və 19 fevral 2020-ci il tarixli 13/64, 14/65 saylı qərarlarını mübahisələndirmiş, dairə seçki komissiyasının adıçəkilən qərarlarının ləğvini, seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını xahiş etmişlər.

Şikayətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Şikayətçilər müraciətlərində iddia etmişdirlər ki, dairə seçki komissiyası araşdırma apararkən onların təqdim etdiyi şikayətlər üzrə düzgün hüquqi nəticəyə gəlməmişdir.

Ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır.

Namizədlərin müraciətlərinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər materialları əhatə etmişdir.

Yuxarıda qeyd olunanlarla əlaqədar namizədlər 95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, komissiya tərəfindən şikayətlər araşdırılmış, həmin dairə seçki komissiyasının müvafiq qərarları ilə müraciətlər əsassız hesab edilərək təmin olunmamışdır.

95 saylı Tərtər seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma nəticəsində seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizədlərin müraciətləri əsassız hesab olunaraq təmin edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, səsvermə günü seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Göstərilənlərə əsasən müraciətlər təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 95 saylı Tərtər seçki dairəsi üzrə qeydə alınmış namizədlər Mehtiyeva Arzu Yusif qızı, Abdullayev Ayaz Rəsul oğlu və digərlərinin müraciətləri əsassız olduğundan təmin edilməsin.
2. Dairə seçki komissiyasının 18 və 19 fevral 2020-ci il tarixli 13/64, 14/65 saylı qərarları dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 32/405

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 351 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Sərdar Calal oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət etməklə həmin seçki dairəsinin bəzi seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli, 29/122 saylı qərarını mübahisələndirərək, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciət verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

S.C.Məmmədov müraciətində iddia etmişdir ki, səsvermə günü 15 saylı Yasamal birinci seçki dairəsi üzrə seçki məntəqələrində səsvermədə iştirak edən seçici fəallığı aşağı olmuş, seçki bülletenləri topa şəkildə seçki qutularına atılmış, adları seçici siyahılarında olmayan seçicilər səs vermiş, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmış, 1, 3, 5, 6, 7, 8, 9, 11, 12, 14, 15, 16, 20, 24, 27, 30 və 31 saylı seçki məntəqələrində səslər düzgün hesablanmamış, müşahidəçilərə yekun protokollar verilməmiş və digər qanun pozuntularına yol verilmişdir. Namizəd dairə seçki komissiyasına təqdim edilmiş müraciətinin və digər sənədlərinin düzgün araşdırılmadığını iddia edərək, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 29/122 saylı qərarının ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını tələb etmişdir.

S.C.Məmmədov müraciətinə 4 ədəd elektron məlumat diski (DVD-disk) və 31 ədəd akt əlavə etmişdir.

Araşdırma ilə bağlı ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, Komissiyanın iclasında namizədin səlahiyyətli nümayəndəsinin iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarları və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

15 saylı Yasamal birinci seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma ilə seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya nəticələrinin hesablanması zamanı sözügedən seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd S.C.Məmmədovun müraciəti əsassızdır və təmin edilməməlidir.

Müraciətin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə sözü gedən seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilərkən və digər materiallar araşdırılarkən 15 saylı Yasamal birinci seçki dairəsinin 10, 19, 28 və 29 saylı seçki məntəqələri üzrə səsvermənin keçirilməsi və nəticələrinin hesablanması zamanı seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmışdır. Göstərilən pozuntular seçki qanunvericiliyinin tələblərinə görə seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün əsas yaratdığından 10, 19, 28 və 29 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Eyni zamanda araşdırma ilə müəyyən edilmişdir ki, səsvermə günü 10, 19, 28 və 29 saylı seçki məntəqələri istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyaları üzvlərindən, müxtəlif siyasi partiyaların müşahidəçiləri də daxil olmaqla digər seçki subyektlərindən müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, yuxarıda qeyd edilən 4 seçki məntəqəsi istisna olmaqla, digər seçki məntəqələrində seçki qanunvericiliyinin tələblərinin pozulması halları öz təsdiqini tapmamışdır.

Beləliklə, qeydə alınmış namizəd S.C.Məmmədovun müraciəti qismən təmin edilməli, 10, 19, 28 və 29 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 29/122 saylı qərarı həmin seçki məntəqələri üzrə hissədə ləğv edilməli, qalan hissədə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 15 saylı Yasamal birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Sərdar Calal oğlunun 21 fevral 2020-ci il tarixli 351 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 10, 19, 28 və 29 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Dairə seçki komissiyasının 14 fevral 2020-ci il tarixli 29/122 saylı qərarı 10, 19, 28 və 29 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/407

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 360 saylı, 22 fevral 2020-ci il tarixli 380 və 383 saylı müraciətlərə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 77 saylı Astara seçki dairəsi üzrə qeydə alınmış namizədlər Bağırov Rövşən Tofiq oğlu 2020-ci il fevralın 21-də, Quliyev İqbal Xeyrulla oğlu və Əliyev Əli Ağadədə oğlu 2020-ci il fevralın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət ünvanlamış, həmin seçki dairəsinin bəzi seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair həmin seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 19/72 saylı qərarını mübahisələndirərək, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişlər.

Müraciətlər eyni məzmunlu olduğundan və 77 saylı Astara seçki dairəsinin eyni seçki məntəqələrini əhatə etdiyindən bir icraatda birləşdirilmişdir.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizədlər müraciətlərində iddia etmişlər ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə seçki dairəsi üzrə seçki məntəqələrində səsvermədə iştirak edən seçicilərin fəallığı aşağı olmuş, seçki bülletenləri topa şəkildə seçki qutularına atılmış, adları seçici siyahılarında olmayan seçicilər səs vermiş, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmış və digər qanun pozuntularına yol verilmişdir. Namizədlər dairə seçki komissiyasına təqdim edilmiş müraciətlərin və digər sənədlərinin düzgün araşdırılmadığını iddia edərək, dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 19/72 saylı qərarının ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını tələb etmişlər. Müraciətlərə 3 ədəd elektron məlumat diski (DVD-disk) və 7 ədəd akt əlavə olunmuşdur.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, onlara əlavə sənəd və ya material təqdim etmək, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Müəyyən edilmişdir ki, qeydə alınmış namizədlərin müraciətləri dairə seçki komissiyası tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli araşdırılmış, səsvermə günü mübahisələndirilən seçki məntəqələri üzrə müvafiq seçki subyektləri, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının üzvləri tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

77 saylı Astara seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, namizədlərin müraciətlərində səsvermə günü seçki məntəqələrindəki qanun pozuntuları ilə bağlı iddiaları hərtərəfli araşdırılmış və nəticədə səsvermənin keçirilməsi və ya nəticələrin rəsmiləşdirilməsi zamanı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından müraciət əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırma ilə əlaqədar səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokolları və digər sənədlər dairə seçki komissiyasından tələb edilərək götürülmüş və onlara baxış keçirilmişdir. Araşdırma nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamış, bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Müraciətlərin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilmiş, 77 saylı Astara seçki dairəsinin seçki məntəqələri üzrə hər hansı bir pozuntu əks olunan görüntü müəyyən edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, seçki dairəsinin mübahisələndirilən seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Göstərilənlərə əsasən qeydə alınmış namizədlər R.T.Bağırov, İ.X.Quliyev və Ə.A.Əliyevin müraciətlərinin təmin edilməməsi, 77 saylı Astara seçki dairəsi dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli, 19/72 saylı qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 112-ci, 112-1-ci, 170-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 77 saylı Astara seçki dairəsi üzrə qeydə alınmış namizədlər Bağırov Rövşən Tofiq oğlu, Quliyev İqbal Xeyrulla oğlu və Əliyev Əli Ağadədə oğlunun 21 fevral 2020-ci il tarixli 360 saylı, 22 fevral 2020-ci il tarixli 380 və 383 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 15 fevral 2020-ci il tarixli 19/72 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/412

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 357 saylı, 22 fevral 2020-ci il tarixli 386 və 391 saylı müraciətlərə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 46 saylı Şirvan seçki dairəsi üzrə qeydə alınmış namizədlər Gülüş Zabit Əlizamin oğlu 2020-ci il fevralın 21-də, Xurşudov Əlikram İdris oğlu və Əliyev Ziya Fəxrəddin oğlu isə 2020-ci il fevralın 22-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək seçki günü adıçəkilən seçki dairəsinin əksər seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia edərək dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 25/17 saylı, 18 fevral 2020-ci il tarixli 27/80 saylı, habelə 18 fevral 2020-ci il tarixli 27/81 saylı qərarlarını mübahisələndirmiş və onların ləğv olunmasını, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını xahiş etmişlər.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə birgə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizədlər Z.Ə.Gülüş, Ə.İ.Xurşudov və Z.F.Əliyev müraciətlərində iddia edirlər ki, seçki dairəsi üzrə səsvermə günü seçici aktivliyi aşağı olsa da, seçki qutularına əlavə bülletenlərin atılması və qrup halında şəxslərin seçki məntəqəsinə gətirilməsi və seçicilərin bir neçə seçki məntəqəsində səs verməsinə nail olunması hesabına seçici aktivliyi süni şəkildə artırılmış, 32 saylı seçki məntəqəsində bülletenlərin sayılması başa çatmadan içəriyə seçicilər buraxılmış, bəzi seçki məntəqələrində seçici fəallığı ilə bağlı müşahidəçilərə məlumat verilməmiş, seçki prosesini müşahidə etmək üçün müşahidəçilərə Seçki Məcəlləsinin tələblərinə əsasən səsvermə prosesinin izlənilməsi üçün yaradılan şərait qanunla nəzərdə tutulmuş tələblərə uyğun olmamış, 6 və 26 saylı seçki məntəqələrində bülletenlərin sol küncü öncədən kəsilmiş, bəzi məntəqə seçki komissiyaları saydıqları bülletenləri səsli şəkildə müşahidəçilərə elan etməmiş, 7 və 32 saylı seçki məntəqələrində istifadə olunmamış bülletenlər ləğv edilmədən səslər hesablanmağa başlanmış və sonda işıqlar söndürülmüş, müşahidəçilərin çıxarılması üçün seçki məntəqəsinə polis çağrılmış, onlara həmin yekun protokolunun surəti verilməmiş, protokollar seçki məntəqələrində yazılmamış, həmçinin yekun protokolunun 3-cü nüsxəsi seçki məntəqələrinin məlumat lövhələrində asılmamışdır.

Ərizəçilər müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair 3 ədəd elektron məlumat daşıyıcısı və 35 akt əlavə etmişlər.

Namizəd Z.Ə.Gülüş və digərləri müraciətlərini onunla əsaslandırır ki, yuxarıda qeyd olunanlarla əlaqədar 46 saylı Şirvan seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayət komissiya tərəfindən araşdırılmış, dairə seçki komissiyasının müvafiq qərarları ilə onların müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçilərlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onların araşdırmada və Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

46 saylı Şirvan seçki dairəsinin dairə seçki komissiyası qərarlarını onunla əsaslandırmışdır ki, müraciətdə adları qeyd olunan seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd Z.Ə.Gülüş və digərlərinin müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir.

Araşdırmanın nəticəsi olaraq sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallar müşahidə edilməmişdir.

Şikayətin araşdırılması ilə əlaqədar təqdim edilən elektron daşıyıcılarda olan görüntülərə baxış keçirilmiş, müraciətdə və təqdim olunmuş aktlarda iddia olunan pozuntular öz təsdiqini tapmamışdır.

Dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq baxış keçirilmişdir. Baxış nəticəsində seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarında bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkarlanmamışdır.

Dairə seçki komissiyasına ünvanlanan müraciətlərdə iddia edilən pozuntular seçki məntəqələri üzrə dairə seçki komissiyası tərəfindən araşdırılması aparılan hallara dair müxtəlif maraqları təmsil edən çoxsaylı müşahidəçilərdən, məntəqə seçki komissiyaları üzvlərindən və seçilməmiş namizədlərdən və digər seçki subyektlərindən alınmış ümumilikdə 200-dən çox izahatlarla öz təsdiqini tapmamışdır.

Z.Ə.Gülüş və digərlərinin müraciətinin təmin edilməməsinə dair 46 saylı Şirvan seçki dairəsi dairə seçki komissiyasının müvafiq qərarları qiymətləndirilərkən müəyyən edildi ki, müraciətə dairə seçki komissiyası tərəfindən qanunla nəzərdə tutulan müddətdə və qaydada baxılmış, düzgün hüquqi nəticəyə gəlinmiş və müvafiq qərar ərizəçiyə vaxtında təqdim olunmuşdur.

Beləliklə, 46 saylı Şirvan seçki dairəsinin dislokasiyasında olan bir sıra seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, həmçinin səsvermənin keçirilməsi və ya nəticələrinin müəyyənləşdirilməsi zamanı həmin seçki dairəsi üzrə seçicilərin iradəsini müəyyən etməyə imkan verməyən qanun pozuntuları olmadığından qeydə alınmış namizəd Z.Ə.Gülüş və digərlərinin müraciətləri əsassız olduğundan təmin edilməməli, həmin dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 25/17 saylı, 18 fevral 2020-ci il tarixli 27/80 saylı, habelə 18 fevral 2020-ci il tarixli 27/81 saylı qərarları dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 46 saylı seçki dairəsi üzrə qeydə alınmış namizədlər Gülüş Zabit Əlizamin oğlu, Xurşudov Əlikram İdris oğlu və Əliyev Ziya Fəxrəddin oğlunun 21 və 22 fevral 2020-ci il tarixli 357, 386 və 391 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 13 fevral 2020-ci il tarixli 25/17 saylı, 18 fevral 2020-ci il tarixli 27/80 saylı və 18 fevral 2020-ci il tarixli 27/81 saylı qərarları dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/410

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 348 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Kazım Eldar oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 14/43 saylı qərarını mübahisələndirmiş və onun ləğv olunmasını, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd K.E.Məmmədov müraciətində iddia edir ki, səsvermə günü digər namizəd Ramin Həsənovun xeyrinə təşviqat aparılmış, bülletenlər sayılan zaman onun xeyrinə səslər süni şəkildə artırılmış, seçki prosesini müşahidə etmək üçün müşahidəçilərə Seçki Məcəlləsinin tələblərinə əsasən səsvermə prosesinin izlənilməsi üçün yaradılan şərait qanunla nəzərdə tutulmuş tələblərə uyğun olmamış, bəzi seçki məntəqələrində seçki qutusuna topa bülletenlər atılmış, seçki dairəsinin 3, 4, 5, 6 və 41 saylı məntəqə seçki komissiyaları istisna olmaqla digərləri səsvermənin nəticələri haqqında protokolun surətini verməmişdir.

Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair 1 ədəd elektron məlumat daşıyıcısı əlavə etmişdir.

Namizəd K.E.Məmmədov müraciətini onunla əsaslandırır ki, yuxarıda qeyd olunanlarla əlaqədar 91 saylı Ucar seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayət komissiya tərəfindən araşdırılmış, dairə seçki komissiyasının müvafiq qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmiş və ərizəçinin Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

91 saylı Ucar seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, müraciətdə adı çəkilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd K.E.Məmmədovun müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir. Dairə seçki komissiyası bu qərarı çıxararkən xüsusilə ona diqqət yetirmişdir ki, səsvermə günü baş verməsi iddia olunan hər hansı qanun pozuntuları ilə bağlı müvafiq seçki komissiyasına heç bir müraciət daxil olmamışdır.

Qeyd edilməsi zərurudir ki, həmin seçki dairəsindən deputatlığa digər namizəd Məmmədov Əbil Abbas oğlunun 2020-ci il fevralın 18-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş 284 saylı müraciəti ilə həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 13/41 saylı qərarından Mərkəzi Seçki Komissiyasına verdiyi şikayətlə əlaqədar aparılmış hərtərəfli araşdırma çərçivəsində seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edildiyindən Mərkəzi Seçki Komissiyasının 21 fevral 2020-ci il tarixli 29/326 saylı Qərarı ilə seçki dairəsinin 18 və 38 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi nəzərə alınmalıdır.

Araşdırma zamanı qeydə alınmış digər namizədlərdən, müxtəlif siyasi partiyaları təmsil edən digər müşahidəçilərdən və adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən alınmış izahatlarla müəyyən edilmişdir ki, səsvermə günü mübahisələndirilən seçki məntəqələrinin əksəriyyətində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokolu Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş, maraqlı seçki subyektlərinə verilmiş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlsə də, 1 saylı seçki məntəqəsi üzrə dairə seçki komissiyasının gəldiyi nəticə düzgün hesab edilməməlidir.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yerləşdirilmiş görüntülər və təqdim olunmuş materialların araşdırılması nəticəsində 1 saylı seçki məntəqəsində bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntu müəyyən edilmişdir.

Göstərilənlərə əsasən müraciətlərin qismən təmin edilməsi, dairə seçki komissiyasının qərarının 1 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilməsi, seçki dairəsinin həmin seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 91 saylı Ucar seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Kazım Eldar oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 348 saylı müraciəti qismən təmin edilsin, 1 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 14/43 saylı qərarı 1 saylı seçki məntəqəsi üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/411

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 365 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 84 saylı Füzuli seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Yusif Şükür oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 39/81 saylı qərarını mübahisələndirmiş və həmin seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələri və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"da nəzərdə tutulmuş müddətdə və qaydada verildiyindən Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Namizəd Y.Ş.Ağayev müraciətində 84 saylı Füzuli seçki dairəsi üzrə bəzi seçki məntəqələrində adları seçici siyahılarında olmayan seçicilərin səs verdiyini, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradıldığını, müşahidəçilərə foto və videoçəkiliş aparmağa icazə verilmədiyini, seçki qutularına lider namizədin xeyrinə topa ilə seçki bülletenlərinin atıldığını, həmin pozuntularla bağlı dairə seçki komissiyasına təqdim edilmiş müraciətlərin və digər sənədlərin düzgün araşdırılmadığını iddia edərək, dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 39/81 saylı qərarının və seçki dairəsi üzrə səsvermənin nəticələrinin ləğv olunmasını tələb etmişdir.

Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair 1 elektron məlumat diski (DVD-disk) əlavə etmişdir.

Namizəd müraciətini onunla əsaslandırmışdır ki, yuxarıda qeyd olunan pozuntularla əlaqədar 84 saylı Füzuli seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayət komissiya tərəfindən araşdırılmış, dairə seçki komissiyasının müvafiq qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamış, həmin qərar ona təqdim edilməmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, ona əlavə sənəd və ya material təqdim etmək, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Müəyyən edilmişdir ki, qeydə alınmış namizədin müraciəti dairə seçki komissiyası tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada hərtərəfli araşdırılmış, səsvermə günü mübahisələndirilən seçki məntəqələri üzrə müvafiq seçki subyektləri, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının üzvləri tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

84 saylı Füzuli seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, namizədin müraciətində səsvermə günü seçki məntəqələrindəki qanun pozuntuları ilə bağlı iddiaları hərtərəfli araşdırılmış və nəticədə səsvermənin keçirilməsi və ya nəticələrin rəsmiləşdirilməsi zamanı seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından müraciət əsassız hesab olunaraq təmin edilməməlidir. Namizəd Y.Ş.Ağayevin müraciətinin təmin edilməməsinə dair 19 fevral 2020-ci il tarixli 39/81 saylı qərar dairə seçki komissiyası tərəfindən həmin gün poçt vasitəsilə ərizəçiyə göndərilmişdir ki, bu da dairə seçki komissiyasının hərəkətsizliyini istisna edir. Bunu təsdiq edən poçtun müvafiq sənədi dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlərlə birlikdə araşdırma materiallarına əlavə edilmişdir.

Araşdırma ilə əlaqədar səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokolları və digər sənədlər dairə seçki komissiyasından tələb edilərək götürülmüş və onlara baxış keçirilmişdir. Araşdırma nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamış, bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Müraciətin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilmiş, 84 saylı Füzuli seçki dairəsinin seçki məntəqələri üzrə hər hansı bir pozuntu əks olunan görüntü müəyyən edilməmişdir.

Araşdırma zamanı müəyyən edilmişdir ki, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Səsvermə günü seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntularının araşdırılması məqsədi ilə müşahidə aparmış müxtəlif seçki subyektlərindən alınmış izahatlardan müəyyən edilmişdir ki, həmin pozuntuları təsdiq edən hər hansı bir fakt aşkarlanmamışdır.

Göstərilənlərə əsasən qeydə alınmış namizəd Y.Ş.Ağayevin müraciətinin təmin edilməməsi, 84 saylı Füzuli seçki dairəsi dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 39/81 saylı qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 84 saylı Füzuli seçki dairəsi üzrə qeydə alınmış namizəd Ağayev Yusif Şükür oğlunun 21 fevral 2020-ci il tarixli 365 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 19 fevral 2020-ci il tarixli 39/81 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/408

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 378 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Vüqar Tofiq oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddətinin ötürülməsi ilə daxil olmuş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 25 saylı Nizami ikinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədov Vüqar Tofiq oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 378 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə daxil olduğundan müraciət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/409

### 2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 369 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Türksoy Mete Seymur oğlu 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) səsvermə günü adıçəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmiş, bu pozuntuların araşdırılmasını və bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilərək rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş şikayətvermə müddətinin ötürülməsi ilə daxil olmuş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və yuxarıda göstərilən Təlimatın 4.1.2-ci yarımbəndinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilərlər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə və müvafiq Təlimatın 7.10.2-ci yarımbəndinə əsasən şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 4.1.2-ci və 7.10.2-ci yarımbəndlərinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 114 saylı Şəki kənd birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Türksoy Mete Seymur oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 369 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə daxil olduğundan müraciət etmiş şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Qərar № 32/413

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 366 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədova Rəbiyyə İlqar qızı 2020-ci il fevralın 21-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 60/174 saylı qərarını mübahisələndirmiş və onun ləğv olunmasını, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Qeydə alınmış namizəd R.İ.Məmmədova müraciətində iddia edir ki, səsvermə günü 1, 2 və 3 saylı seçki məntəqələrində namizəd M.Musayevin təşviqatı aparılmış, bülletenlər sayılan zaman onun xeyrinə səslər süni şəkildə artırılmış, seçki prosesini müşahidə etmək üçün müşahidəçilərə Seçki Məcəlləsinin tələblərinə əsasən səsvermə prosesinin izlənilməsi üçün yaradılan şərait qanunla nəzərdə tutulmuş tələblərə uyğun olmamış, qeydiyyatda olmayan şəxslər səsverməyə buraxılmış, bəzi hallarda seçicilərin barmaqları yoxlanılmamış, səslərin hesablanmasında ciddi pozuntular baş vermiş, 9 saylı seçki məntəqəsində seçici fəallığı barədə məlumat elan edilməmiş və seçicilərin sayı süni surətdə artırılmış, seçki dairəsinin 8 və 21 saylı məntəqə seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların surəti verilməmişdir.

Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair 3 ədəd elektron məlumat daşıyıcısı və aktlar əlavə etmişdir.

Namizəd R.İ.Məmmədova müraciətini onunla əsaslandırır ki, yuxarıda qeyd olunanlarla əlaqədar 10 saylı Binəqədi üçüncü seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, şikayət komissiya tərəfindən araşdırılmış, dairə seçki komissiyasının müvafiq qərarı ilə onun müraciəti əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmiş və ərizəçinin Komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Həmçinin, dairə seçki komissiyasının mübahisələndirilən qərarı və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

R.İ.Məmmədovanın müraciətinin araşdırılması səsvermə günü seçki dairəsinin seçki məntəqələri üzrə sosial şəbəkələrdə yerləşdirilmiş görüntüləri, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair dairə seçki komissiyalarına təqdim etdikləri yekun protokolları və namizəd tərəfindən təqdim olunmuş digər materialları əhatə etmişdir.

10 saylı Binəqədi üçüncü seçki dairəsinin dairə seçki komissiyası qərarını onunla əsaslandırmışdır ki, müraciətdə adıçəkilən seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları ilə bağlı iddialar öz təsdiqini tapmadığından, səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı həmin seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd R.İ.Məmmədovanın müraciəti əsassız hesab olunaraq təmin edilməməlidir. Dairə seçki komissiyası bu qərarı çıxararkən xüsusilə ona diqqət yetirmişdir ki, səsvermə günü baş verməsi iddia olunan hər hansı qanun pozuntusu ilə bağlı müvafiq komissiyaya müraciət daxil olmamışdır.

Qeyd edilməsi zərurudir ki, həmin seçki dairəsindən deputatlığa digər namizədlər namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Aslanlı Gülağa Qulam oğlu və namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş İbrahimli Qorxmaz Əbülfəz oğlunun 2020-ci il fevralın 20-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 317 saylı müraciətləri ilə həmin seçki dairəsi dairə seçki komissiyasının 18 fevral 2020-ci il tarixli 61/176 saylı və 19 fevral 2020-ci il tarixli 62/178 saylı qərarlarından Mərkəzi Seçki Komissiyasına verdikləri şikayətlərlə əlaqədar aparılmış hərtərəfli araşdırma çərçivəsində seçicilərin iradə ifadəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular aşkar edildiyindən Mərkəzi Seçki Komissiyasının 23 fevral 2020-ci il tarixli 31/373 saylı qərarı ilə seçki dairəsinin 16 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi nəzərə alınmalıdır.

Araşdırma ilə əlaqədar sosial şəbəkələrdə yayılan görüntülər, təqdim edilən video materiallar nəzərdən keçirilərkən səsvermə prosesində, səslərin hesablanmasında və səsvermənin nəticələrinə dair protokolların tərtib edilməsində bu və ya digər şəkildə seçkilərin nəticəsinə təsir edə biləcək hallara rast gəlinməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları alınaraq onlara baxış keçirilmişdir. Baxış nəticəsində həmin seçki məntəqələrinin səsvermənin nəticələrinə dair protokollarındakı məlumatlarda uyğunsuzluqlar aşkarlanmamışdır. Araşdırma zamanı bu və ya digər formada seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən pozuntular müəyyən edilməmişdir.

Araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən, müxtəlif maraqları təmsil edən müşahidəçilərdən müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, qeydə alınmış namizəd R.İ.Məmmədovanın müraciətdə iddia etdiyi qanun pozuntuları öz təsdiqini tapmamış və bu səbəbdən dairə seçki komissiyası düzgün hüquqi nəticəyə gəlmişdir.

Göstərilənlərə əsasən müraciətin əsassız hesab edilərək təmin olunmaması və dairə seçki komissiyasının müvafiq qərarının dəyişdirilmədən saxlanılması üçün hüquqi əsaslar yaranmışdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 10 saylı Binəqədi üçüncü seçki dairəsi üzrə qeydə alınmış namizəd Məmmədova Rəbiyyə İlqar qızının 2020-ci il fevralın 21-də Mərkəzi Seçki Komissiyasına daxil olmuş 21 fevral 2020-ci il tarixli 366 saylı müraciəti təmin edilməsin və dairə seçki komissiyasının 17 fevral 2020-ci il tarixli 60/174 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## Qərar № 32/414

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 19 fevral 2020-ci il tarixli 302 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-da keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə (Milli Məclis) seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayılova Ləman Aləşrəf qızı 2020-ci il fevralın 19-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) yazılı müraciət ünvanlamış, həmin seçki dairəsinin bəzi seçki məntəqələrində səsvermə günü baş vermiş qanun pozuntularının araşdırılmasına dair həmin seçki dairəsi dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/41 saylı qərarını mübahisələndirərək, müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci,112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

L.A.İsmayılovanın müraciətində göstərilən halların tam, hərtərəfli və obyektiv araşdırılması, iş üzrə zəruri olan bütün məlumatların öyrənilməsi məqsədi ilə araşdırma müddəti Mərkəzi Seçki Komissiyasının 22 fevral 2020-ci il tarixli 30/345 saylı Qərarı ilə artırılmışdır.

Namizəd müraciətində iddia etmişdir ki, 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə seçki dairəsi üzrə seçki məntəqələrində səsvermədə iştirak edən seçici fəallığı aşağı olmuş, seçki bülletenləri topa şəkildə seçki qutularına atılmış, 4, 7, 8, 9, 10, 11, 15, 19, 22, 23, 24, 29, 30, 31, 32, 33, 34, 38, 39, 42, 43, 45, 46, 47, 48, 54, 55, 56 və 59 saylı seçki məntəqələrində səslər düzgün hesablanmamış və digər qanun pozuntularına yol verilmişdir. L.A.İsmayılova dairə seçki komissiyasına təqdim edilmiş müraciətinin və digər sənədlərinin düzgün araşdırılmadığını iddia edərək, dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/41 saylı qərarının ləğvini və seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını tələb etmişdir. Ərizəçi müraciətinə 3 ədəd elektron məlumat diski (DVD-disk), 23 ədəd akt və 20 ədəd səsvermənin nəticələrinə dair protokolun nüsxələrini əlavə etmişdir.

Araşdırma prosesində ərizəçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması ona izah edilmiş, namizədin Komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarları və digər sənədlər araşdırma materiallarına əlavə edilmişdir.

117 saylı Oğuz - Qəbələ seçki dairəsinin dairə seçki komissiyası qeyd edilən qərarını onunla əsaslandırmışdır ki, araşdırma ilə seçki məntəqələrində baş verməsi ehtimal olunan qanun pozuntuları öz təsdiqini tapmadığından və səsvermənin keçirilməsi və ya səsvermənin nəticələrinin hesablanması zamanı sözü gedən seçki məntəqələri üzrə seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları aşkarlanmadığından qeydə alınmış namizəd L.A.İsmayılovanın müraciəti əsassızdır və təmin edilməməlidir.

Müraciətin araşdırılması ilə əlaqədar səsvermə günü və sonrakı günlərdə sosial şəbəkələrdə sözü gedən seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı yayımlanmış görüntülərə baxış keçirilmiş, 117 saylı Oğuz-Qəbələ seçki dairəsinin seçki məntəqələri üzrə hər hansı bir seçki pozuntusu əks olunan görüntü aşkarlanmamışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından mübahisələndirilən məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokolları dairə seçki komissiyasından tələb edilərək götürülmüş və onlara baxış keçirilmişdir. Səsvermə günü seçki qanunvericiliyinin tələbinə uyğun olaraq məntəqə seçki komissiyaları tərəfindən müvafiq qaydada təsdiqlənərək müşahidəçilərə verilmiş səsvermənin nəticəsinə dair protokolların nüsxələri ilə məntəqə seçki komissiyaları tərəfindən dairə seçki komissiyasına təhvil verilmiş protokolların müqayisəli araşdırılması aparılarkən 29, 30 və 43 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələrinə dair protokollarda uyğunsuzluq müəyyən edilmişdir. Qeyd olunanlara əsasən həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsaslar yaranmışdır.

Eyni zamanda araşdırma ilə müəyyən edilmişdir ki, səsvermə günü 29, 30 və 43 saylı seçki məntəqələri istisna olmaqla, seçki dairəsinin mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamış, seçicilər sərbəst şəkildə səs verərək öz iradələrini ifadə etmiş, məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair yekun protokolları Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq tərtib olunmuş və bu baxımdan dairə seçki komissiyası düzgün nəticəyə gəlmişdir.

Araşdırma zamanı adıçəkilən məntəqə seçki komissiyalarının üzvlərindən, müxtəlif siyasi partiyaların müşahidəçiləri də daxil olmaqla digər seçki subyektlərindən müvafiq izahatlar alınaraq nəzərdən keçirilmişdir. Müəyyən edilmişdir ki, yuxarıda qeyd edilən 3 seçki məntəqəsi istisna olmaqla, digər seçki məntəqələrində seçki qanunvericiliyinin tələblərinin pozulması halları öz təsdiqini tapmamışdır.

Beləliklə, qeydə alınmış namizəd L.A.İsmayılovanın müraciəti qismən təmin edilməli, 29, 30 və 43 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/41 saylı qərarı həmin seçki məntəqələri üzrə hissədə ləğv edilməli, qalan hissələrdə isə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-da keçirilmiş Milli Məclisə seçkilərdə 117 saylı Oğuz - Qəbələ seçki dairəsi üzrə qeydə alınmış namizəd İsmayılova Ləman Aləşrəf qızının19 fevral 2020-ci il tarixli 302 saylı müraciəti qismən təmin olunsun, həmin seçki dairəsinin 29, 30 və 43 saylı seçki məntəqələri üzrə səsvermənin nəticələri etibarsız sayılsın.
2. Dairə seçki komissiyasının 16 fevral 2020-ci il tarixli 20/41 saylı qərarı 29, 30 və 43 saylı seçki məntəqələri üzrə hissədə ləğv edilsin, digər hissədə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*24.02.2020*

## BİLDİRİŞ

11 fevral 2020-ci il saat 11:00-da Protez-Ortopedik Bərpa Mərkəzi (VÖEN: 1000341661) tərəfindən "Avtonəqliyyat vasitələrinin icarəyə götürülməsi xidməti"nin satın alınması üzrə keçirilmiş kotirovka sorğusunun qalibi "Aistgroup" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankı
### *tender elan edir*

Azərbaycan Respublikası Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə açıq tender üsulu ilə elektron satınalma keçirir:

**LOT 1:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini və əskinasçeşidləyici sistemlərin istismarını təmin etmək üçün tələbata uyğun qablaşdırma materiallarının satın alınması;

**LOT 2:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması;

**LOT 3:** Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək məqsədilə elektrikli yükqaldıranlar üçün akkumulyatorların satın alınması.

Tender prosedurları **02 aprel 2020-ci il saat 15:00-da** dövlət satınalmalarının vahid internet Portalında (**https://etender.gov.az/**) (bundan sonra - Portal) keçiriləcəkdir.

Maraqlı şəxslər tenderdə iştirak etmək üçün Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə Portal vasitəsilə əsas şərtlər toplusunu əldə edə bilərlər.

Azərbaycan Respublikasının Mərkəzi Bankı

**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, nizamnaməsi, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *Azərbaycan dilində tender təklifi (tender təklifi 15 may 2020-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son 2 (iki) il ərzində müvafiq malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar (adı, ünvanı və əlaqə telefonu);*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçılar tenderlər üzrə təklif və təklifin bank təminatlarını **02 aprel 2020-ci il saat 14:00-dək** digər tələb olunan sənədləri isə ən geci **17 mart 2020-ci il saat 18:00-dək** Portal vasitəsilə təqdim edə bilərlər.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilməsi müddəti: satınalma müqaviləsi imzalandığı gündən 60 (altmış) təqvim günü müddətində.

Qiymətləndirmə meyarları: qiymət və keyfiyyət amili (funksional yararlılıq).

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız Portal vasitəsilə verilir.

Tender prosedurlarının hər bir iştirakçısı onun təklifinin açılmasını və qiymətləndirilməsini Portal vasitəsilə müşahidə edə bilər.

***Tender komissiyası***

## Atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli, Quşçu Ayrım, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Abdinli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 25.02.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə
### *tender elan edir*

**LOT 1: Pin zərflərin alınması**

Tender iştirakçılarına təklif edilir ki, **http://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi 100 AZN məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.BIK: AZPOAZ22**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **17 mart 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **01 aprel 2020-ci il saat 15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **02 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Oktay İsmayılov - Tender komissiyasının üzvü (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov ailəsi ilə birlikdə Milli Məclis Aparatının Beynəlxalq əlaqələr şöbəsinin Parlamentlərarası əməkdaşlıq sektorunun müdiri Aynur Nurəhmədovaya atası

**MÜLATİF ADUROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və notariat baş idarəsinin kollektivi Bahadur İslamova anası

**KÜBRA İSLAMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Tibb Universitetinin I Mamalıq-Ginekologiya kafedrasının kollektivi kafedranın dosenti

**HƏLİMƏ MƏCİDOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6940
Sifariş 586
Qiyməti 40 qəpik